Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 102 (8125) ŞƏNBƏ, 11 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Baş ziyarətgah

Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü günüdür.

AZƏRTAC xəbər verir ki, xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ümummilli liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Ardı 2-ci səh.

## Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib



İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Qəhrəman azərbaycanlılar Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl əzmkarlıq nümayiş etdirib. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçan 7 min hərbi təyyarənin yanacaq təchizatında da mühüm rol oynayıb. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərib, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilib. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər edib.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atıb. Məhz ulu öndərin ədaləti uca tutması sayəsində İkinci Dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq Azərbaycanda 9 may - Qələbə Günü qeyd olunur. Ümummilli lider müharibə veteranlarını "Xalqımızın qızıl fondu" adlandırırdı. Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır.

Ardı 2-ci səh.

## İLHAM ƏLİYEV növbəti mühüm uğura imza atdı

### DOST Agentliyi fəaliyyətə başladı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Bakının Yasamal rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılış mərasimində iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.

DOST Agentliyinin və ilk DOST mərkəzinin yeddimərtəbəli inzibati binasının memarı Nəriman İmaməliyevdir. Neomodernizm üslubunda inşa edilən bu bina mühəndis sistemləri baxımından ən müasir tələblərə cavab verir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva binada yaradılan şəraitlə yaxından tanış oldular.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev binada yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, mərkəzdə xidmətin asanlaşdırılması məqsədilə elektron lövhələr və məlumat köşkü yaradılıb. Nazirliyin aidiyyəti qurumlarının fəaliyyəti mərkəzdə əlaqəli şəkildə təmin edilib. Əlilliyi olan şəxslər üçün lazımi şərait yaradılıb. Xidmətlər vahid standartlar əsasında və bir-birinə inteqrasiya olunmuş şəkildə elektron müstəvidə təqdim olunur. DOST mərkəzlərində proaktiv xidmətlər də göstəriləcək, vətəndaşlara bu və ya digər sosial hüquqları barədə məlumat veriləcək.

Qeyd edək ki, ilk DOST mərkəzi gün ərzində 350 vətəndaşı qəbul edə biləcək. Mərkəz ilkin mərhələdə Bakının Yasamal və Səbail rayonlarının əhalisinə xidmət edəcək. İl ərzində 100 mindən artıq vətəndaşa "bir pəncərə" prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 126 xidmət göstəriləcək.

Ardı 3-cü səh.

## Bakı daha da gözəlləşir, yaşıllaşır

### Prezident İlham Əliyev bu istiqamətdə ardıcıl tədbirlər görür





Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Zığ dairəsi-Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun 28-ci kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə kampaniyasında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev "Keçmiş yod-brom zavodunun çirklənmiş ərazilərinin təmizlənməsi" və "Heydər Əliyev Beynəlxalq Aeroportunun yaxınlığındakı çirklənmiş ərazilərin təmizlənməsi" layihələri barədə Prezident İlham Əliyevə məlumat verdi.

Qeyd edək ki, dövlət başçısının tapşırığına əsasən Suraxanı rayonunda keçmiş yod-brom zavodunun ərazisində lay suları, duz, yod və digər tullantılarla çirklənmiş 67 hektar sahənin təmizlənərək bərpa edilməsi, kollektor-drenaj sisteminin qurulması işləri uğurla icra olunub.

Ardı 3-cü səh.

# Baş ziyarətgah








*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, ulu öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular. Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü. Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət olunması mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak ediblər.

# Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib








*Əvvəli 1-ci səh.*

Qələbə bayramı ərəfəsində Prezident İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halı alıb. Azərbaycan Prezidentinin 2019-cu il 23 aprel tarixli sərəncamı ilə İkinci Dünya müharibəsinin iştirakçılarına 1 000 manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım verilib. Respublikamızda müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 may tarixli sərəncamına əsasən isə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi, habelə təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Veteranlar Təşkilatına 300 min manat ayrılıb. Bütün bunlar bir daha təsdiqləyir ki, müharibə veteranlarına hərtərəfli qayğı və diqqət Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.



İkinci Dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 74 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

Prezident, Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident, Ali Baş Komandan İlham Əliyevin qarşısından keçdi.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İkinci Dünya müharibəsinin iştirakçısı, partizan, Hollandiya Müqavimət Hərəkatının görkəmli nümayəndələrindən biri, Niderlandın azərbaycanlı Milli Qəhrəmanı Məmməd Məmmədovun ailə üzvləri və Oistervijk şəhərinin meri Hans Janssen ilə görüşdülər.

Sonra dövlət başçısı və xanımı iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə günü münasibətilə onları təbrik etdilər.

❖ ❖ ❖

Mərasimdə Baş nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

# İLHAM ƏLİYEV növbəti mühüm uğura imza atdı

## DOST Agentliyi fəaliyyətə başladı










*Əvvəli 1-ci səh.*

Mərkəzdə 96 nəfər, "Gənc DOST" proqramı üzrə isə 50 könüllü fəaliyyət göstərəcək. Burada "Pensiya və sosial sığorta", "Sosial müavinətlər və təqaüdlər", "Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat", "Sosial xidmətlər və övladlığa götürmə məsələləri", "Əmək münasibətləri", "Məşğulluq xidmətləri", "Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri", "Bank və notarius xidmətləri" də var. Beləliklə, mərkəz vətəndaşların nazirlik üzrə bütün xidmətlərdən "bir pəncərə"yə müraciət edib və "bir pəncərə"dən faydalanmasına imkan verir. Vətəndaşlara məsləhət və məlumat xidmətləri də göstəriləcək. Onların bilavasitə, telefon və ya internet vasitəsilə müraciətləri əsasında, səyyar və digər üsullarla xidmətlərin həyata keçirilməsi də təmin ediləcək.

Dövlət başçısı və birinci xanım əlilliyi olan şəxslərin əl işlərindən ibarət sərgiyə də baxdılar.

Prezident İlham Əliyevin uğurlu sosial siyasəti əhalinin rifah halının yaxşılaşdırılmasına, həssas qruplara dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə güclənməsinə, bu sahədə mühüm addımların atılmasına, ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan yaradıb. Bunlarla yanaşı, Prezident İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Dövlət başçısının "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il avqustun 9-da imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin məqsədi də məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir.

Əhalinin sosial müdafiəsi istiqamətində son illər görülən işlərlə bağlı da məlumat verildi.

Qeyd edildi ki, ilin birinci rübündə dövlət başçısı tərəfindən həyata keçirilən sosial islahatlar paketinin uğurlu nəticələri kimi əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində atılan mühüm addımlar 3 milyondan artıq vətəndaşın rifahına mühüm dəstək olub. O cümlədən minimum əməkhaqlarının və pensiyanın minimum məbləğinin 40 faizədək, sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırılması təmin edilib. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, ötən il şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 626 mənzil verilib, 265 nəfər isə avtomobillə təmin olunub. 2019-cu ildə isə azı 800 mənzilin və 600 avtomobilin qeyd olunan kateqoriyalara aid şəxslərə verilməsi nəzərdə tutulur. Bildirildi ki, 2019-cu ildə bir neçə reabilitasiya və sosial xidmət müəssisəsi də istifadəyə veriləcək. Ötən il Özünüməşğulluq Proqramından 7267 ailə istifadə edib. Bu il 10 min ailənin bu proqrama qoşulması nəzərdə tutulur.

Sonra DOST Agentliyinin E-sosial portalı, E-pensiya və məşğulluq altsistemi barədə videoçarx nümayiş olundu.

Vurğulandı ki, hazırda dünya təcrübəsində oxşar layihələr olsa da, DOST mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 126 xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihədir. Ona görə də DOST mərkəzlərinin ölkəmizin dövlət sosial xidmətləri sahəsində Azərbaycanın yeni brendinə çevriləcəyi gözlənilir. Agentlik DOST mərkəzləri vasitəsilə "bir pəncərə" prinsipi ilə 2,8 milyon şəxsə xidmət göstərəcək. Agentliyin 2019-2025-ci illərdə Bakıda və ölkəmizin regionlarında 31 DOST mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub. DOST Agentliyinin mərkəzi aparatında 315 nəfər, DOST mərkəzlərində kateqoriyasından asılı olaraq 50-100 nəfər xüsusi təlim keçən sosial agentlər və sosial işçilər fəaliyyət göstərəcək. "Gənc DOST" könüllülər proqramı hazırlanıb və artıq 50 könüllü işə başlayıb. Hər mərkəzdə 30-50 könüllünün, gələcəkdə isə yaşlıların cəlbi də nəzərdə tutulur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva DOST Agentliyinin bir qrup işçisi və "Gənc DOST" könüllüləri ilə görüşdülər.

Agentliyin işçilərini və "Gənc DOST" könüllülərini salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. İlk DOST mərkəzi açılır, fəaliyyətə başlayır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Keçən ilin avqust ayında mənim sərəncamımla DOST Agentliyi yaradıldı və şadam ki, qısa müddət ərzində, heç bir il keçməmiş birinci mərkəz artıq fəaliyyətə başlayır. Bildiyiniz kimi, Bakıda, bütün bölgələrdə bütövlükdə 31 mərkəz yaradılacaq. Vətəndaşlara yüksək xidmət göstərmək üçün burada bütün şərait, bütün imkanlar var. Bina çox gözəldir, müasirdir - həm xarici görünüşü, həm də dizayn-tərtibat baxımından. Bu, bir daha onu göstərir ki, sosial sahə bizim üçün prioritet sahədir. Hər mərkəzdə təqribən 100-150 iş yeri olacaq, bu da çox önəmlidir. Hər bir mərkəzdə könüllülər qrupu fəaliyyət göstərəcək. Beləliklə, bu mərkəzlər vətəndaşlara yüksəksəviyyəli xidmət etmək üçün gözəl şərait yaradacaqdır.

Sosial sahə bizim üçün prioritet sahədir. Bu sahəyə çox böyük diqqət göstərilir və bu istiqamətdə aparılan islahatlar artıq özünü göstərir. DOST Agentliyinin yaradılması bu istiqamətdə atılmış çox önəmli islahatdır. Növbəti illərdə bu agentliyin fəaliyyətinin genişləndirilməsi, əminəm ki, vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndiriləcək. Beləliklə, bu sahə ilə bağlı bizim siyasətimiz daha da geniş miqyasda və məqsədyönlü şəkildə icra ediləcəkdir. Sosial sahə hər bir ölkə üçün böyük önəm daşıyır. Azərbaycanda da bu sahəyə böyük diqqət göstərilir. Bizim siyasətimiz sosialyönümlü siyasətdir. Çalışırıq bütün əlavə gəlirlərimizi sosial sahəyə yönəldək ki, vətəndaşların rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəmizin dinamik inkişafı təmin edilsin. Əlbəttə, buna nail olmaq üçün ilk növbədə iqtisadi inkişaf olmalıdır və biz bu məsələ ilə bağlı ciddi məşğuluq. Qeyri-neft sektorunun, sahibkarlığın inkişafı bir-biri ilə bağlı olan məsələlərdir. Hesab edirəm ki, Azərbaycanda bu istiqamətdə işlər uğurla gedir. İqtisadiyyatımız çoxşaxəli iqtisadiyyata çevrilir. Bildiyiniz kimi, özəl sektor ümumi daxili məhsulumuzda təqribən 80 faiz təşkil edir. Beləliklə, iqtisadi artım, iqtisadi sahədə aparılan islahatlar, büdcə daxilolmalarının artımı, əlbəttə ki, sosial sahəyə böyük diqqət göstərmək üçün imkan yaradır. Deyə bilərəm ki, bu ilin dörd ayında vergi və gömrük orqanları təqribən 400 milyon manata yaxın əlavə vəsait toplayıblar - 270 milyon manat vergi orqanları, 100 milyon manatdan bir qədər çox gömrük orqanları. Yenə də şəffaflıq, yenə də islahatlar hesabına. Bu əlavə maliyyə resursu imkan verir ki, biz pensiyaları, maaşları, sosial müavinətləri artıraq və bunu edirik. Bildiyiniz kimi, bu yaxınlarda çox ciddi sosial paket hazırlanıb təsdiqləndi və 3 milyona yaxın insan bu imkanlardan bəhrələnib. Bundan sonra da bu istiqamətdə işlər aparılacaq, minimum əməkhaqqının, minimum pensiyanın artırılması gündəlikdə duran məsələlərdir. Məşğulluğun inkişafı - yəni qeyri-qanuni məşğulluqla mübarizə nəticə verir və beləliklə, ölkəmizin iqtisadi və sosial siyasəti bir-biri ilə uzlaşır. Bu, belə də olmalıdır. Ancaq biz bunu tam şəkildə icra etsək, ölkəmizin dayanıqlı uğurlu inkişafı təmin olunacaqdır.

Sosial sahədə bir önəmli təşəbbüs də Özünüməşğulluq Proqramıdır. Mən çox şadam ki, vətəndaşlar bu proqrama çox böyük maraq göstərirlər. Biz artıq bir neçə ildir ki, bu işlərlə məşğuluq. Son dövrdə bu sahədə daha fəal iş aparılır və şadam ki, müraciətlərin sayı artır. Mənim təşəbbüsümlə biz Dünya Bankı ilə bu məsələni müzakirə etdik. Biz onları da bu işlərə cəlb etdik. Dünya Bankı da öz maliyyə resurslarından istifadə edərək bu sahəyə vəsait ayıracaq və beləliklə, bu il təqribən 10 minə yaxın vətəndaş Özünüməşğulluq Proqramı ilə əhatə olunacaq. Gələcəkdə bu işin miqyası artmalıdır. Bu, həm məşğulluğun artırılmasına xidmət edəcək, eyni zamanda ölkə iqtisadiyyatına böyük töhfə olacaq. Özünüməşğulluq Proqramının qeyri-neft sektorunun, kənd təsərrüfatının, xidmət sektorunun inkişafı üçün çox böyük əhəmiyyəti var.

Bizim siyasətimiz, demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni, bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək.

Mən çox şadam ki, burada işləyənlərin, demək olar, hamısı gənclərdir və gənclər üçün yaradılan şərait gələcəyə qoyulan sərmayədir. Çünki gənclər gələcəkdə ölkəmizi idarə edəcəklər, öz töhfələrini verəcəklər. Gənclər bilikli, savadlı, vətənpərvər və qayğıkeş olmalıdırlar. Əminəm ki, siz burada vətəndaşlara çox yüksək xidmət göstərəcəksiniz.

Sizi bir daha bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, tezliklə növbəti DOST mərkəzləri yaradılsın. Sağ olun.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

# Bakı daha da gözəlləşir, yaşıllaşır

## Prezident İlham Əliyev bu istiqamətdə ardıcıl tədbirlər görür

*Əvvəli 1-ci səh.*

Ümumilikdə indiyədək bu ərazidə yerli iqlim şəraitinəuyğun 50 mindən çox müxtəlif növ ağac əkilərək böyük yaşıllıq zolağı salınıb.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkdilər.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən ağacəkmə aksiyasında 4 hektar ərazidə ümumilikdə 3250 ağac əkildi. Ağaclar əraziyə çəkilmiş müasir, avtomatlaşdırılmış damcılı suvarma sistemi vasitəsilə suvarılır. Suvarma üçün su isə Hövsan Aerasiya Stansiyasından götürülür və təmizləyici qurğularda təmizləndikdən sonra suvarmaya ötürülür. Damcılı suvarma sisteminin elektrik enerjisi ilə təchizatı Suraxanı Günəş Elektrik Stansiyası hesabına təmin ediləcək.





Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aksiyada iştirak edən gənclərlə görüşdülər. Dövlət başçısı gənclərə ekoloji durumun yaxşılaşdırılması ilə bağlı gördüyü işlərə görə təşəkkürünü bildirdi. Azərbaycan gənclərinin çox önəmli sosial-ekoloji layihələr icra etdiyini deyən dövlət başçısı Bakının daha da gözəlləşdiyini, yaşıllaşdığını vurğuladı.

Azərbaycan dövləti ekologiyanın və ətraf mühitin mühafizəsi məsələsinə həmişə xüsusi diqqətlə yanaşır. Ölkəmizin zəngin flora və faunasının qorunması, ekoloji durumun daha da yaxşılaşdırılması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində ulu öndər Heydər Əliyev bütün dövrlərdə çox böyük işlər görüb. Ümummilli liderin əsasını qoyduğu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir. Təsadüfi deyil ki, Azərbaycanda reallaşdırılan milli inkişaf strategiyasının prioritet sahələrindən biri də ətraf mühitin mühafizəsini, həmçinin insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Dövlət başçısı tərəfindən 2010-cu ilin ölkədə "Ekologiya ili" elan edilməsi isə bunun bariz nümunəsi olmaqla yanaşı, bir daha sübut edir ki, Azərbaycanda ekoloji siyasətə xüsusi diqqət ayrılır.





Prezident İlham Əliyev neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşıb. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı ölkədə ciddi əməli işlər görülüb, milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıb, yaşıllıqların miqyası isə ildən-ilə daha da artırılıb. Bütün bu məqsədyönlü layihələr ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir.

Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.

Müxtəlif vaxtlarda icra olunan ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə etməklə, ümumilikdə ölkəmizin ekoloji vəziyyətinin sağlamlaşdırılmasına böyük töhfələr verir.

Bu gün Azərbaycanın hər yerində vətəndaşların iştirakı ilə ağacəkmə aksiyaları keçirilir. Bu işlərin görülməsində, yaşıllıqların salınmasında, şəhərlərimizdə və rayonlarımızda təmizlik işlərində hər bir sakin fəal iştirakı ilə seçilir. Təsadüfi deyil ki, hazırda Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunədir.

# Prezident İlham Əliyev görkəmli bəstəkar Arif Məlikov ilə vida mərasimində iştirak edib











Mayın 9-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında görkəmli bəstəkar, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ və Azərbaycan Respublikasının xalq artisti, Dövlət və Heydər Əliyev mükafatları laureatı Arif Məlikovla vida mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Mərasimdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev Arif Məlikovun ömür yolu və bənzərsiz yaradıcılığı barədə danışıb. Qeyd edilib ki, böyük bəstəkar Qara Qarayevin tələbəsi olmuş Arif Məlikov geniş yaradıcılıq diapazonu ilə seçilən sənətkar idi. O öz istedadını musiqimizin müxtəlif janrlarında sınayaraq instrumental, vokal, simfonik, xor və kamera əsərləri yaratmış, həm kino, həm teatr sənətinə layiqli töhfəsini vermişdir. Nazim Hikmətin librettosuna yazdığı "Məhəbbət əfsanəsi" baleti bəstəkara dünya şöhrəti qazandırıb. Balet ilk dəfə 1961-ci ildə Sankt-Peterburq Akademik Mariinski Teatrında tamaşaya qoyulub.

Arif Məlikov səkkiz simfoniyanın, "Nağıl", "Vətən", "Metamorfozlar", "Axırıncı aşırım" simfonik poemalarının, süitaların, "Bu torpaqda iki nəfər", "İki qəlbin dastanı" baletlərinin, "Torpağın səsi" kantatasının, "Dalğalar" operettasının, Nazim Hikmətin sözlərinə üç romans silsiləsinin, fortepiano və orkestr üçün konsertin, kamera-instrumental əsərlərin, kinofilmlərə, teatr tamaşalarına musiqinin, bir çox mahnıların müəllifidir. Bəstəkarın musiqisi bu gün dünyanın bir çox ölkələrinin möhtəşəm teatr və konsert salonlarında, dövlət tədbirlərində, mədəniyyət günlərində, beynəlxalq musiqi festivallarında səslənir.

Vurğulanıb ki, Arif Məlikovun taleyinə yazılmış bir ömrün əfsanəsi yarım əsrdən çoxdur musiqisevərləri öz cazibəsində saxlamaqdadır. Bəstəkarın ümummilli lider Heydər Əliyevə ithaf etdiyi "Əbədiyyət" adlı 8-ci simfoniyası Azərbaycan musiqi mədəniyyətinin növbəti sənət zirvəsidir.

Dahi Üzeyir Hacıbəyli və Qara Qarayevin bəstəkarlıq məktəbinin davamçısı olan ustad sənətkar uzun illər ərzində Bakı Musiqi Akademiyasının Bəstəkarlıq kafedrasının müdiri kimi bütün səy və bacarığını yeni bəstəkarlar nəslinin yetişdirilməsinə sərf edib.

Nazir onu da qeyd edib ki, Arif Məlikov fəal vətəndaşlıq mövqeyi ilə xalqın böyük hörmətini qazanmış ictimai xadim olub. 1990-cı ilin 20 Yanvar hadisələri zamanı Azərbaycan xalqının haqq səsini dünyaya çatdıranlar arasında Arif Məlikov da var idi.

Bildirilib ki, bəstəkarın Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliği sahəsində uzunmüddətli səmərəli fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib. Arif Məlikov 1965-ci ildə respublikanın əməkdar incəsənət xadimi, 1978-ci ildə xalq artisti, 1986-cı ildə SSRİ xalq artisti fəxri adlarına, 1986-cı ildə Azərbaycanın Dövlət mükafatına, 1998-ci ildə "İstiqlal", 2013-cü ildə "Heydər Əliyev", 2018-ci ildə "Şöhrət" ordenlərinə layiq görülüb. Nazir daha sonra deyib: "Arif Məlikov vətəninə, elinə-obasına bağlı bir insan idi. O, musiqi ilə yaşayır, musiqi ilə nəfəs alırdı. Lakin dünya heç kəs üçün əbədi deyil. Ancaq yaxşı ad və unudulmaz xatirələr insanı hər zaman yaşadır. Böyük bəstəkar, pedaqoq, səmimi və təvazökar insan Arif Cahangir oğlu Məlikovun xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır".

Vida mərasimində çıxış edən Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti Fərhad Bədəlbəyli Arif Məlikovun onun üçün doğma bir insan olduğunu söyləyib. Bildirib ki, bəstəkarın Nazim Hikmətin sözlərinə yazılmış romansları əsl şedevrdir.

Rektor deyib ki, Arif müəllim əsl ziyalı kimi Bakı Musiqi Akademiyasında gənc musiqişünasların, bəstəkarların yetişməsinə böyük zəhmət sərf edib. Arif Məlikov dünyasını dəyişsə də, yazdığı əsərlər hər zaman böyük salonlarda səslənəcək, nəinki müəllifinə, həm də mənsub olduğu millətə şöhrət gətirəcək.

Arif Məlikovun dünyasını dəyişməsini Azərbaycan elmi üçün də böyük itki hesab edən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, o, böyük akademik düşüncəyə malik bir musiqi xadimi idi. Hər zaman Azərbaycan elmini ləyaqətlə təmsil edən Arif Məlikovun yeni sənətşünaslar, musiqişünaslar nəslinin yetişməsində müəllim, elmi məsləhətçi kimi xüsusi rolu olub. O, Azərbaycan musiqi mədəniyyəti tarixində yüksək zirvələr fəth edib. Heç tərəddüd etmədən demək olar ki, Üzeyir Hacıbəylinin "Arşın mal alan", Qara Qarayevin "İldırımlı yollarla", Fikrət Əmirovun "Min bir gecə" əsərlərindən sonra Arif Məlikovun "Məhəbbət əfsanəsi" Azərbaycan xalqına və musiqi mədəniyyətinə dünya şöhrəti qazandırıb.

Vida mərasimində Azərbaycan Bəstəkarlar İttifaqının katibi, professor Zemfira Qafarova və Arif Məlikovun tələbəsi Ceyhun Allahverdiyev çıxış edərək görkəmli bəstəkarın bənzərsiz sənət dünyasından söhbət açıb, onunla bağlı xatirələrini bölüşüblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı veriblər.

Arif Məlikovun ailə üzvləri mərhumun xatirəsinə göstərilən ehtirama görə dövlət başçısına və birinci xanıma minnətdarlıqlarını bildiriblər.

Vida mərasimindən sonra görkəmli bəstəkarın cənazəsi son mənzilə yola salınıb.

Mərhum I Fəxri xiyabanda torpağa tapşırılıb.

Allah rəhmət eləsin!

## Arif Cahangir oğlu Məlikov



Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Görkəmli bəstəkar, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ və Azərbaycan Respublikasının xalq artisti, Dövlət və Heydər Əliyev mükafatları laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, əməkdar incəsənət xadimi, Bakı Musiqi Akademiyasının kafedra müdiri, professor Arif Cahangir oğlu Məlikov 2019-cu il may ayının 9-da ömrünün 86-cı ilində vəfat etmişdir.

Arif Məlikov 1933-cü il sentyabrın 13-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1948-1951-ci illərdə Bakı musiqi texnikumunda oxumuş, 1953-1958-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq ixtisası üzrə ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1951-1952-ci illərdə Şuşa şəhər musiqi məktəbində müəllim kimi başlayan Arif Məlikov 1960-cı illərdən taleyini Azərbaycan Dövlət Konservatoriyası ilə bağlayaraq burada 1966-1968-ci illərdə baş müəllim, 1968-1978-ci illərdə dosent, 1979-1986-cı illərdə professor və 1986-cı ildən ömrünün sonunadək Bəstəkarlıq kafedrasının müdiri vəzifələrində çalışmışdır.

Arif Məlikov Azərbaycan mədəniyyəti tarixinin yetirdiyi sənətkarlar nəslinin parlaq yaradıcılıq ənənələrini ləyaqətlə davam etdirmiş və milli musiqi salnaməsinə yeni səhifələr yazmışdır. Zəmanəmizin böyük bəstəkarı Qara Qarayevin bəstəkarlıq məktəbinin istedadlı yetirməsi və davamçısı olmaqla, onun hələ tələbəlik illərindən etibarən müxtəlif janrlarda bəstələdiyi əsərlər diqqəti cəlb etmiş və musiqisevərlər tərəfindən dərin rəğbətlə qarşılanmışdır.

Bəstəkarın musiqi mədəniyyətimizin çoxəsrlik tarixə malik bünövrəsi zəminində və müasir kompozisiya texnikasını mükəmməl mənimsəyib yüksək professionallıqla yaratdığı simfoniya, balet, operetta, kantata, vokal, kamera və instrumental əsərlər misilsiz sənət nümunələri olaraq Azərbaycan musiqi xəzinəsinin qiymətli inciləri sırasında özünə həmişəlik yer tutmuşdur. Onun kino və dram tamaşalarına yazdığı musiqi, eləcə də romans və mahnıları məşhur sənətkarların ifasında səslənərək geniş populyarlıq qazanmışdır. Arif Məlikovun bəşəri idealları özündə dolğun əks etdirən əsərləri ölkəmizin hüdudlarından kənarda bu gün də uğurla səsləndirilməkdədir. "Məhəbbət əfsanəsi" baletinin isə dünyanın tanınmış teatr səhnələrində yarım əsrdən artıq bir dövrdə tamaşaya qoyulması musiqi mədəniyyətimizin möhtəşəm nailiyyətlərindəndir.

Bəstəkarlıq fəaliyyəti ilə yanaşı, Arif Məlikov uzun illər ərzində görkəmli pedaqoq kimi öz zəngin təcrübəsindən bəhrələnməklə gənc musiqiçilər nəslinin yetişdirilməsi və peşəkar musiqiçi kadrların hazırlanması işində müstəsna xidmətlər göstərmişdir. Onun ictimai fəaliyyəti də zəngin və çoxşaxəli olmuşdur. Arif Məlikov SSRİ xalq deputatı olaraq respublikamızın ictimai-siyasi həyatında ötən əsrin son onilliklərində cərəyan edən taleyüklü hadisələrə münasibətdə daim vətənpərvər ziyalı mövqeyi nümayiş etdirmişdir.

Akademik Arif Məlikovun Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliği sahəsində uzunmüddətli səmərəli fəaliyyəti dövlət tərəfindən layiqincə və yüksək qiymətləndirilmişdir. O, bir sıra fəxri adlara layiq görülmüş, Azərbaycan Respublikasının ali mükafatlarından "Heydər Əliyev", "İstiqlal" və "Şöhrət" ordenləri ilə təltif olunmuşdur.

Böyük bəstəkar, görkəmli pedaqoq, əsl ziyalı və gözəl insan Arif Cahangir oğlu Məlikovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

**İlham Əliyev, Mehriban Əliyeva, Novruz Məmmədov, Oqtay Əsədov, Ramiz Mehdiyev, Əli Əhmədov, Eldar Əzizov, Fərəh Əliyeva, Əbülfəs Qarayev, Ceyhun Bayramov, Akif Əlizadə, Tahir Salahov, Firəngiz Əlizadə, Fərhad Bədəlbəyli, Siyavuş Kərimi, Fidan Qasımova, Xuraman Qasımova, Tofiq Bakıxanov, Rauf Abdullayev**

# Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi hissəsində gənc əsgərlər and içiblər

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) N saylı hərbi hissəsində gənc əsgərlərin növbəti qrupu vətənə sədaqət andı içib.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev və təntənəli tədbirin iştirakçıları ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, abidəsi önünə gül dəstələri qoyublar.

Sonra döyüş bayrağı sıra meydanına gətirilib, Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət himni səsləndirilib.

Daha sonra gənc əsgərlər təntənəli surətdə hərbi and içiblər.

Andiçmə münasibətilə hərbi hissənin şəxsi heyətini və tədbiri qürurla izləyən valideynləri Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adından təbrik edən general-polkovnik Mədət Quliyev bu gün yaşadığımız sabitliyin və firavanlığın, dövlət müstəqilliyinin nə qədər böyük çətinliklər bahasına başa gəldiyi barədə danışıb. Xidmət rəisi 1990-cı illərin əvvəlindəki Azərbaycanın acınacaqlı vəziyyəti, səriştəsiz rəhbərliklər nəticəsində ölkədəki hakimiyyətsizliyin, iqtisadi böhranın yaratdığı ağır vəziyyətdən, vətəndaş qırğınının baş qaldırmasından, dövlətin faktiki olaraq dağılmaq təhlükəsi ilə üzləşməsi barədə tarixi misallar çəkib.











General-polkovnik Mədət Quliyev bildirib ki, yalnız xalqın təkidli tələbi ilə hakimiyyətə ümummilli lider Heydər Əliyevin dəvət olunması müasir Azərbaycan dövlətini məhv olmaqdan xilas edib, müstəqillik qorunub, ölkədə vətəndaş müharibəsi təhlükəsi aradan qalxıb. Respublikada bütün sahələrdə sürətli tərəqqi və inkişaf dövrü başlayıb.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi qeyd edib ki, ulu öndərin siyasi xəttinin layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə həyata keçirilən uğurlu və ölçüyəgəlməz tədbirlər nəticəsində regionun lider dövlətinə çevrilmiş Azərbaycanın müstəqilliyi günbəgün güclənir, ölkəmizin müdafiə qabiliyyəti durmadan möhkəmlənir, Silahlı Qüvvələrin hərbi və hərbi-texniki potensialı daha da artır. Təsadüfi deyil ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. Bütün bunlar dövlət səviyyəsində ordu quruculuğu üzrə aparılan məqsədyönlü siyasətin bariz nəticəsidir. General-polkovnik Mədət Quliyev zabit və əsgərlərə vətəni müdafiə etmək kimi şərəfli və məsuliyyətli borcun yerinə yetirilməsində uğurlar arzulayıb.

Sonra Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçuları və gənc əsgərlər hərbi marşın sədaları altında tribunanın önündən keçiblər.

Ulu öndərin abidəsi önündə xatirə şəkilləri çəkdirilib.

General-polkovnik Mədət Quliyev əsgərlərin valideynləri ilə görüşərək onları bu əlamətdar gün münasibətilə bir daha təbrik edib. Valideynlər hərbi xidmət üçün yaradılan yüksək şəraitə görə Prezident, Ali Baş Komandan İlham Əliyevə minnətdarlıqlarını bildirərək övladlarına vətənin müdafiəsində daim ayıq-sayıq dayanmağı və dövlətə sədaqətlə xidmət etməyi tövsiyə ediblər.

Andiçmə mərasimi bir daha nümayiş etdirib ki, Silahlı Qüvvələrimizdə hərbi vətənpərvərlik ruhu çox yüksəkdir və müasir Azərbaycan Ordusunda xidmətlə fəxr edən gənclərimiz vətən uğrunda canlarından belə keçməyə hazırdırlar.

1923 *Azərbaycanın özü qədər əbədi* 2019

# Heydər Əliyev Azərbaycanda konstitusion dövlət quruculuğunun banisidir



**Müstəqillik illərində demokratik cəmiyyət quruculuğu sahəsində böyük inkişaf yolu keçən Azərbaycan bu gün bölgədə və dünyada xüsusi nüfuza malikdir. Aparılan mütərəqqi islahatlar nəticəsində ölkəmizdə demokratik və hüquqi dövlət qurulub. Ölkədə tam ictimai-siyasi sabitlik və əmin-amanlıq bərqərar olunub, qanunun aliliyinə əsaslanan sivil vətəndaş cəmiyyəti formalaşıb.**

Bu, müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Vətəni və xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ölkəmizin hər yerində və onun hüdudlarından kənarda da hər bir azərbaycanlının yüksək ehtiram və dərin məhəbbət hissi ilə geniş qeyd olunur.

Azərbaycana rəhbərlik etdiyi birinci dövrdən (1969-1982-ci illər) ulu öndər Heydər Əliyev milli ruhun və azərbaycançılığın dirçəlişi istiqamətində zəruri addımlar atdı. Eyni zamanda haqq-ədalət prinsipinin cəmiyyət həyatının aparıcı qüvvəsinə çevrilməsi istiqamətində müstəsna xidmətləri oldu. Heydər Əliyev dövlət idarəçiliyi sahəsində və siyasi fəaliyyətində bu prinsipi daim uca tutdu, qanunçuluğa hamı tərəfindən dürüst əməl edilməsini sağlam cəmiyyətin formalaşması üçün başlıca meyar kimi müəyyən etdi. Həmin dövrdə qarşıya qoyulmuş bu məqsədlərə nail olmaq üçün Azərbaycanın iqtisadi potensialının artırılması vacib idi. Ölkənin ittifaq məkanında birincilər sırasına çıxarılmasının əhəmiyyətini əvvəlcədən görən Heydər Əliyev Azərbaycanda irimiqyaslı dəyişikliklərə start verdi, iqtisadi və sosial sahələrdə böyük struktur islahatları apardı. Bu, xalqın maddi rifah halının keyfiyyətcə yaxşılaşmasında əsaslı şəkildə özünü göstərdi. Təhlilçilərin qeyd etdiyi kimi, Heydər Əliyev əmin idi ki, iqtisadi cəhətdən azad olmayan millətin siyasi müstəqilliyindən söhbət gedə bilməz. Məhz ulu öndərin səyi ilə SSRİ hökuməti Azərbaycanla əlaqədar hərtərəfli yüksəlişi və intensiv inkişafı nəzərdə tutan mühüm qərarlar qəbul etdi. Və o dövrdə Azərbaycan xalqı üçün, sözün əsl mənasında, tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 1969-1982-ci illər arasında və daha sonrakı perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələlərin həlli üçün zəmin yaratdı.

Ümummilli lider Heydər Əliyev dövlət idarəçiliyinin bütün mərhələlərində qanunun aliliyinin və sosial ədalətin bərqərar edilməsi üçün məqsədyönlü addımlar atıb. 1969-cu ildən bu sahədə təkcə Azərbaycanda deyil, ümumən keçmiş ittifaqda haqsızlığa, hüquqazidd əməllərə qarşı, özünün qətiyyətli və barışmaz mövqeyi ilə böyük hörmət və ehtiram qazanan Heydər Əliyev daim qeyd edirdi ki, hüquq mühafizə orqanlarında sağlam mənəvi-əxlaqi mühitin yaradılması çox vacibdir. Cinayətkarlığa, xüsusən rüşvətxorluğa, korrupsiyaya qarşı kəskin və səmərəli mübarizə aparılması o dövrün ən səciyyəvi xüsusiyyətlərindən idi. Heydər Əliyev dövlətçilik konsepsiyasında ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına böyük üstünlük verirdi. Ümummilli lider vəzifə səlahiyyətləri ilə bağlı cinayətlərə, rüşvətxorluğa qarşı barışmaz münasibət nümayiş etdirirdi.

Ulu öndər dərin zəkası, xarizması, milli ideallara, adət-ənənələrə sıx bağlılığı, zəngin idarəçilik keyfiyyətləri ilə həmin dövrdə *"Qoy ədalət zəfər çalsın!"* şüarını o zamanın ictimai postulatına çevirməyi bacardı. Heydər Əliyev qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsi üçün prinsipial addımlar atdı. Doğma xalqının bəşəri hüquqlarının əzmkar və cəfakeş müdafiəçisi kimi çıxış edən ulu öndər milli ruh, iradə və özünüdərk meyillərinin ictimai fikirdə möhkəmlənməsinə nail oldu. Sovet dövründə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə respublikanın uğur və inkişafının geniş təhlilini verən cənab İlham Əliyev bildirib ki, 1969-cu ildə Azərbaycan sovet məkanında ən geridə qalmış respublikalardan biri idi: *"Bunu sosial-iqtisadi göstəricilər də təsdiq edir. On üç il ərzində yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan sovet məkanında ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Əgər sovet dövründə - 1980-ci illərdə iki donor respublika var idisə, onlardan biri Azərbaycan idi. Azərbaycan ümumittifaq xəzinəsinə daha çox vəsait verirdi, nəinki alırdı. Məhz o illərdə Azərbaycanda sənayenin inkişafı böyük templərlə təmin olunurdu. Yüngül sənayedə, ağır sənayedə, neft sənayesində böyük işlər görülmüşdür. O vaxt yaradılmış infrastruktur bu gün müstəqil Azərbaycanın inkişafına xidmət göstərir. Kənd təsərrüfatına böyük diqqət göstərilirdi. Azərbaycan böyük tikinti meydançasına çevrilmişdi. Yəni 1982-ci ilin sosial-iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, doğrudan da Heydər Əliyevin rəhbərliyi ilə 13 il ərzində böyük işlər görülmüşdür və Azərbaycan, qeyd etdiyim kimi, qabaqcıl yerlərdə idi".*

1982-1987-cil illərdə Heydər Əliyevin Sovet İttifaqı kimi super gücə malik dövlətin rəhbərliyində Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifə və mövqe tutması qürurverici hadisə idi. Heydər Əliyevin qətiyyəti, prinsipiallığı, şəxsi keyfiyyətləri yüksək qiymətləndirilirdi. Araşdırma və təhlillər göstərir ki, Heydər Əliyevin siyasi elitanın zirvəsinə yüksəlməsi Azərbaycan üçün xüsusilə böyük əhəmiyyət kəsb edirdi. Heydər Əliyev artan nüfuzundan və yüksək vəzifənin açdığı imkanlardan istifadə edərək ittifaq büdcəsindən Azərbaycana daha çox vəsait ayrılmasına, bir sıra layihələrin respublikamıza yönəldilməsinə nail olurdu.

Lakin 1987-ci ildə heç bir əsas olmadan Heydər Əliyevin istefaya göndərilməsi ona qarşı edilən ədalətsizlik idi.

1985-ci ildən Sovet İttifaqında vəziyyətin pisləşməyə doğru getməsi, qəbul edilən qərarların dövlətin zəifləməsinə yol açması, milli münasibətlərin getdikcə pozulması prosesi gedirdi. Heydər Əliyev isə prinsipial mövqeyi ilə seçilir, bu mənfi hallara qarşı qəti münasibətini bildirirdi. Yaranmış vəziyyətdən istifadə edən ermənilər Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürməyə başladılar. Azərbaycanın əzəli torpağı Dağlıq Qarabağın başı üstünü qara buludlar aldı. Azadlıq hərəkatı dalğasında hakimiyyətə gələn AXC-Müsavat cütlüyünün səriştəsizliyi ölkəni xaos və anarxiyaya sürükləyirdi. Cəbhədəki uğursuzluqlar, daxildəki siyasi və hərbi qarşıdurmalar Azərbaycanı vətəndaş müharibəsi ilə üz-üzə qoymuşdu. Yenicə müstəqillik qazanan Azərbaycan süquta uğramaq təhlükəsi içində çapalayırdı. Düşmən qüvvələrin təhriki ilə şimal və cənub bölgələrində baş qaldıran separatçı meyillər ölkəni parçalamaq hədəfi güdürdü. Gəncə hadisələri, Əlikram Hümbətov və Surət Hüseynovun silahlı dəstələri vəziyyəti daha da gərginləşdirirdi.

Azərbaycanın bu ağır günlərində xalq və artıq öz bacarıqsızlığını anlayan AXC-Müsavat iqtidarı da ulu öndəri Bakıya dəvət edir və xilas yolunu yalnız onun siyasi hakimiyyətə qayıdışında görürdülər.

Xalqın təkidli dəvətini qəbul edən, harayına səs verən, çağırışını eşidən ulu öndər 1993-cü il iyun ayının 9-da Bakıya gəldi. Qarşıdurmanı aradan qaldırmaq üçün Gəncədə oldu. Oradan qayıdan ulu öndər yaranmış vəziyyətdən çıxış yolları barədə geniş məruzə etdi, məsləhət və tövsiyələrini verdi. 1993-cü il iyunun 15-də Milli Məclis Heydər Əliyevi yekdil səslə Ali Sovetin Sədri seçdi. Və həmin gün ümummilli lider Milli Məclisdəki geniş və əhatəli nitqində Azərbaycanın demokratik dövlət quruculuğunun gələcək inkişafının prioritet istiqamətlərini müəyyən etdi: *"Biz Azərbaycanda demokratik, müstəqil respublika quraraq, sivilizasiyalı cəmiyyət uğrunda mübarizə apararaq, ümumi, dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra, ilk dəfə müstəqilliyini qazandıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından səmərəli istifadə olunarsa, Azərbaycan tam demokratik, hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan bir cəmiyyət olacaq".*

Azərbaycan ictimai fikrində xalqının və Vətəninin xilaskarı mücəssəməsinə çevrilən ulu öndər Heydər Əliyev çox az müddətdə vətəndaş sülhünə və həmrəyliyinə, yenicə müstəqillik əldə edən ölkənin başı üstünü alan bütün digər təhlükələrin qarşısının alınmasına nail oldu. Ümummilli liderin milli inkişaf konsepsiyası Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün aydın üfüqlər açdı. Bu konsepsiya spesifikliyi və unikallığı ilə fərqlənməklə Azərbaycan xalqının gələcək yaşam fəlsəfəsini, milli inkişaf prioritetlərini müəyyənləşdirir, demokratik dəyərləri özündə ehtiva edirdi. Beləliklə, insan hüquq və azadlıqlarının daha etibarlı qorunmasına xidmət edən islahatlar, habelə demokratikləşmə prosesinin sürətlənməsi fikri cəmiyyətdə getdikcə daha möhkəm əsaslarla intişar tapmağa başladı. Azərbaycanın inkişaf və uğur səmtini görən, duyan xalq bu yolun alternativsizliyinə qəti əmin oldu. Heydər Əliyevin qətiyyəti sayəsində siyasi anarxiya və eksperimentlərə son qoyuldu. Ölkədə cinayətkarlığın, özbaşınalığın qarşısı tam alındı, bütün qanunsuz silahlı dəstələr ləğv edildi. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Bu bir daha təsdiq etdi ki, müstəqillik və Azərbaycanın suveren dövlət kimi mövcud olması tarixi zərurətdən irəli gələn hadisə idisə, Azərbaycanın müstəqilliyi, əbədiliyi və dönməzliyi ümummilli liderin adı və fəaliyyəti ilə bağlı olan müasir tariximizin inkaredilməz, pozulmaz səhifəsidir.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən və ölkənin təbii sərvətlərindən milli mənafeyə uyğun şəkildə istifadə etmək yolunu seçdi. Bu məqsədlə irimiqyaslı beynəlxalq iqtisadi sazişlər işlənib hazırlandı. Heydər Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizə artan inam və maraq müstəsna əhəmiyyət qazandı.

Heydər Əliyev tərəfindən işlənib hazırlanan və ölkənin iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyası uğurla həyata keçirildi. 1994-cü il sentyabr ayının 20-də "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalandı. "Əsrin müqaviləsi" çərçivəsində reallaşan Bakı- Tbilisi- Ceyhan əsas ixrac boru kəməri ilə bu gün Azərbaycan nefti dünya bazarına çıxarılır. "Əsrin müqaviləsi" kimi bir sazişin imzalanması nəticəsində Azərbaycan ilk dəfə olaraq öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə ölkəmizin regionda və dünyada nüfuzunu, əhəmiyyətini artırdı. Bunun uğurlu davamı Azərbaycanın iri regional layihələrlə Avropanın və bütövlükdə dünya enerji təhlükəsizliyi sisteminə qoşulması oldu.

Dövlət quruculuğu nəzəriyyəsini və praktikasını mükəmməl bilən Heydər Əliyev ədalətli idarəçilik sistemi yaratmadan cəmiyyətin dövlətə etimad və inamının formalaşdırılmasını qeyri-mümkün hesab edirdi. Bunun üçün ilk növbədə məhkəmə-hüquq sistemində dövrün tələblərinə cavab verən mütərəqqi islahatların aparılmasına nail oldu. Yüksək humanizm, şəxsiyyətə inam və hörmət, insanpərvərlik prinsiplərinə böyük önəm verən ulu öndər Avratlantik məkana inteqrasiya yolunda qətiyyətli addımlar atdı. 1993-cü ildə ölüm cəzasının tətbiqi üzərində moratoriumun qoyulması, 1998-ci ildə Şərqdə ilk dəfə olaraq bu cəzanın ləğv edilməsi və Avropa Şurasına üzvlük istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi onun humanistliyinin təzahürü idi. Ulu öndərin 1994-cü ildə imzaladığı cinayətkarlıqla mübarizəyə yönəlmiş tarixi fərmanı qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı.

1995-ci il noyabrın 12-də Azərbaycan xalqı ümumxalq səsverməsi ilə - referendum yolu ilə ölkənin müstəqilliyi dövründə ilk Konstitusiyasını qəbul etdi. Bu Azərbaycan dövlətinin və xalqının tarixində müstəsna əhəmiyyətə malik bir hadisə idi. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu yeni Konstitusiya çoxəsrlik dövlətçilik ənənələrimizə və qabaqcıl dünya təcrübəsinə əsaslanmaqla yanaşı, milli və ümumbəşəri dəyərləri də özündə əks etdirirdi. Əsas Qanun Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğuna, ictimai-siyasi, iqtisadi və mədəni həyatın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərdi. Heydər Əliyev demokratik, hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Konstitusiyanın qəbul edilməsi sadəcə yeni ictimai sistemin hüquqi tanınmasını təsdiq edən fakt deyil, həm də ölkəmizin inkişafının yeni mərhələyə qədəm qoymasının göstəricisi idi. Bu mərhələ siyasi sistemin mərkəzində insanın, onun hüquq və azadlıqlarının, demokratik və hüquqi dövlət ideallarının durması ilə səciyyələnir. İnsanın, onun hüquqlarının və azadlıqlarının ali dəyər kimi qəbul olunması ölkə konstitusiyasının əsas qayəsini təşkil edir.

Əsas Qanunun preambulasında Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri qaydalara sadiq qalıb bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı münasibətlər qurmaq Azərbaycan xalqının istəkləri sırasında bəyan edilir. Konstitusiya Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik sənəddir və dövlətin qanunvericilik sisteminin əsasını təşkil edir. Bu ali sənəddə müasir sivil cəmiyyətlərin inkişaf istiqamətlərini müəyyən edən mütərəqqi ideya və dəyərlər geniş şəkildə əksini tapıb. Əsas qanun Azərbaycanın konstitusiya quruluşunun vacib əsası kimi xalq hakimiyyətini bəyan edir, ölkədə dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqını elan edir, sərbəst və müstəqil öz müqəddəratını və idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir.

Konstitusiyada nəzərdə tutulur ki, Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Konstitusiya Azərbaycan dövlətini demokratik, dünyəvi, hüquqi, unitar respublika elan edir, insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi təsbit edir. Dövlət hakimiyyətinin təşkilinin hakimiyyətlərin bölünməsi prinsipinə əsasən aparılması hüquqi dövlətin təməl prinsiplərindəndir. Konstitusiyaya əsasən, qanunvericilik, icra və məhkəmə hakimiyyəti qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər. Azərbaycan Respublikasında sağlam siyasi mühitin formalaşmasına imkan verən, vətəndaşların cəmiyyətin siyasi həyatında və dövlətin idarə olunmasında iştirakını nəzərdə tutan siyasi plüralizm kimi mühüm prinsip də Konstitusiyada öz əksini tapır.

Qeyd edək ki, ilk dəfə 2002-ci ildə Azərbaycanda konstitusion dəyişikliklərə yaranan ehtiyac məhz bütün sahələrdə qabarıq nəzərə çarpan sürətli inkişafdan irəli gəlirdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsi keçirilməsi haqqında" 22 iyun 2002-ci il tarixli fərmanına əsasən, 2002-ci il avqustun 24-də keçirilən referendumun nəticəsi kimi Konstitusiyaya obyektiv reallıqdan irəli gələn bir sıra mütərəqqi dəyişikliklər edildi. Bu əlavə və dəyişikliklər Konstitusiyanın qəbulundan sonrakı dövrdə demokratiyanın sürətli inkişafından irəli gəlməklə, ölkənin insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmasından, məhkəmə islahatlarının həyata keçirilməsindən irəli gələn öhdəliklərə əməl edilməsinə Milli Məclisin fəaliyyətinin, seçki sisteminin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsinə xidmət edirdi.

Ümummilli lider Heydər Əliyevin dövlət başçısı imicini şərtləndirən ən başlıca amillərdən biri də bağışlamağı bacaran, böyük qəlbə malik, humanist və nəcib şəxsiyyət olması idi. Ulu öndər respublika rəhbərliyinə qayıtdıqdan çox az sonra əfvetmə institutunu bərpa etməklə, vətəndaşların dövlətə, onun rəhbərinə güvənini, ümid və etimadını artırdı. 1993-2003-cü illərdə 32 əfv, 8 amnistiya aktı imzalamaqla cəzanın adekvatlığı və humanistliyi məsələlərinə xüsusi diqqətlə yanaşdığını sübuta yetirdi. Bu məqsədlə eyni zamanda məhkəmə-hüquq sistemində işlək və çevik mexanizmlərin tədbiqini, habelə ədalət mühakiməsinin səmərəliliyini təmin etdi. Ölkəmizdə insan haqlarının müdafiəsinə dair mühüm normativ aktlar qəbul olundu. İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) institutu yaradıldı. Hüquqi dövlət quruculuğu prosesi çərçivəsində ədliyyə orqanlarında əsaslı islahatlar aparıldı. İlk növbədə, penitensiar müəssisələrin Ədliyyə Nazirliyinin tabeliyinə verilməsi işi başa çatdırıldı. Bu addımın atılmasında məqsəd məhkəmə qərarlarının icrası sistemini təkmilləşdirmək, cəza-tərbiyə işini daha da humanistləşdirmək, ən əsası isə insan hüquqlarının, azadlıqlarının gözlənilməsini təmin etmək idi.

Azərbaycanda köklü məhkəmə-hüquq islahatlarının aparılmasının zəruriliyini nəzərə alan ümummilli liderin təşəbbüsü ilə 1997-ci ildə zəngin demokratik ənənələri olan ölkələrin təcrübəsinə əsaslanan "Məhkəmələr və hakimlər haqqında" yeni qanun qəbul olundu və məhkəmə islahatlarına dair proqram xarakterli fərman imzalandı. Ümummilli liderin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatı nəticəsində keçmiş sovet məhkəmə sistemi ləğv edilərək 2000-ci ildən yeni, insan haqlarının müdafiəsinə daha etibarlı təminat verən üçpilləli müstəqil məhkəmə sistemi fəaliyyətə başladı.

Heydər Əliyevin xarici ölkələrə səfərləri, beynəlxalq təşkilatlardakı çıxışları, yaxud ölkəmizə gələn dövlət rəhbərləri, rəsmi şəxslərlə görüşləri müstəqil Azərbaycan dövlətçiliyinin ən yaxşı təqdimatı idi. Ulu öndər Azərbaycan həqiqətlərini, ölkəmizin Ermənistan tərəfindən işğala məruz qaldığını, bir milyondan çox qaçqın və məcburi köçkünün problemləri ilə üzləşdiyi, lakin bunlara baxmayaraq, demokratik prinsiplərə və hüquqi dövlət quruculuğuna sadiq qaldığını, bölgəmizdə və dünyada sülhə və təhlükəsizliyə töhfə verdiyini dəfələrlə şərh etməkdən yorulmurdu.

Heydər Əliyevin "İqtisadiyyatı qüdrətli olan dövlət hər şeyə qadirdir" fikri bir daha təsdiq edir ki, ümummilli lider ölkə iqtisadiyyatının inkişafına dövlət quruculuğunun mühüm tərkib hissəsi kimi böyük önəm verirdi. Bu strategiya çərçivəsində həyata keçirilən islahatlar dövlətin iqtisadi və sosial dayaqlarının möhkəmləndirilməsində əsaslı rol oynadı. Ulu öndərin rəhbərliyi altında reallaşdırılan siyasi, sosial, iqtisadi islahatlar nəticəsində Azərbaycan dövlətçiliyin əsası və möhkəm təməllər üzərində qurulan baza sonrakı illərdə müstəqil Azərbaycanın daha da qüdrətlənməsini və tərəqqisini təmin etdi.

Heydər Əliyevin strategiyasını uğurla reallaşdıran ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev 2003-cü ilin oktyabrından xarakterindəki qətiyyəti və xarizması, praqmatik və müdrik siyasəti ilə ölkəni irəli aparır. Ötən on altı il ərzində elə bir sahə olmamışdır ki, orada islahatlar aparılmasın və davamlı inkişaf müşahidə edilməsin. Bu gün iqtisadi sahədə rəqabətqabiliyyətliliyinə görə Azərbaycan Davos Dünya İqtisadi Forumunun, Dünya Bankının hesabatlarında ön sıralarda yer alır və islahatçı dövlət kimi tanınır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilir. 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq "Cənub qaz dəhlizi"nin təməli qoyulub. 2018-ci ilin iyul ayında isə həmin dəhlizin tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirilib. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanan "Xəzər dənizində yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin ("Əsrin müqaviləsi") müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılıb. Yeni şərtlərə görə, SOCAR-ın payının 11 faizdən 25 faizə qaldırılması, mənfəət neftinin 75 faizinin Azərbaycana verilməsi nəzərdə tutulub. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə bonus kimi 3,6 milyard dollar ödəniləcəyi qərara alınıb. Müqavilənin müddətinin uzadılması Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaradıb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində də böyük işlər görülüb. Təməli 2007-ci ildə qoyulan Bakı-Tbilisi-Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olub. Azərbaycanın Rusiya Federasiyası, İran, Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilib. 2018-ci il sentyabrın 18-də İran İslam Respublikası ilə yeni Ələt-Astara dövlət sərhədi magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan "Şimal-Cənub nəqliyyat dəhlizi" layihəsinin reallaşması üçün bütün işlər başa çatdırılıb. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilib. Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı - Ələt Dəniz Ticarət Limanının fəaliyyətə başlaması da respublikamızın mühüm tranzit və logistika mərkəzi kimi tanınmasında mühüm rol oynayır. Eyni zamanda, İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulub. 2013-cu il fevralın 8-də Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1", 2014-cü ildə ikinci - Yer səthini müşahidə edən "Azer-sky" peyki, 2018-ci ilin sentyabrında isə daha bir telekommunikasiya peyki "Azerspace-2" orbitə çıxarılıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ötən illər ərzində məqsədyönlü, davamlı tədbirlər həyata keçirilib. Beynəlxalq reytinqlərə görə, Azərbaycan Silahlı Qüvvələri hazırda dünyada ən güclü 50 ordu sırasında yer tutur. Bu gün Azərbaycan Ordusu regionun güclü müasir silahlı qüvvəsidir və işğal olunmuş torpaqlarımızı hər an azad etməyə hazırdır. Azərbaycanın hərbi gücünü və qüdrətini Silahlı Qüvvələrimizin 100 illiyi münasibətilə 2018-ci ilin iyun ayında keçirilən hərbi parad əyani formada nümayiş etdirdi.

Praqmatik liderlik keyfiyyətlərinə malik dövlət başçısı cənab İlham Əliyev ölkəmizi müasir və qüdrətli dövlətə çevirmək məqsədini sadəcə bəyanatlarla ifadə etməyib, qarşıya qoyduğu vəzifələrin yüksək səviyyədə həyata keçirilməsi üçün konkret icra mexanizmləri müəyyənləşdirib. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və "Milli İqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi" kimi konseptual əhəmiyyətli sənədlər qəbul edilib. Bütün bunlarla yanaşı, regionların sosial-iqtisadi inkişafına, biznes mühitinin liberallaşdırılmasına istiqamətlənən dövlət siyasətinin uğurla davam etdirilməsi istər ümumi daxili məhsulun, istərsə də ölkənin valyuta ehtiyatlarının artımına əlverişli şərait yaradıb.

Azərbaycanda sosial-iqtisadi inkişafa paralel şəkildə hüquqi və siyasi islahatlar da Prezident İlham Əliyev tərəfindən uğurla aparılır. Dövlət başçısının insan haqlarının etibarlı qorunması, hüquqi xidmətin yaxşılaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə imzaladığı çoxsaylı fərman və sərəncamların, verdiyi tapşırıqların icrası üzrə görülmüş tədbirlərin sayəsində Azərbaycan hüquq sistemi öz inkişafının keyfiyyətcə yeni, daha yüksək mərhələsinə qədəm qoyub. Azərbaycan Respublikası 2006-cı ilin may ayında BMT-nin İnsan Hüquqları Şurasına üzv seçilib. Bu, Azərbaycan dövlətinin insan hüquq və azadlıqları sahəsində apardığı ardıcıl işin beynəlxalq əhəmiyyət kəsb etdiyini və imicinin artdığını göstərir. Dövlət başçısı İlham Əliyev "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli fəaliyyət planının təsdiq edilməsi haqqında" 28 dekabr 2006-cı il tarixdə imzaladığı sərəncamda Azərbaycanın müasir inkişaf dövrünün hüququ dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində əldə edilən uğurlar - sosial-iqtisadi islahatların dərinləşməsi, demokratikləşmə prosesinin sürətlənməsi, vətəndaş cəmiyyəti institutlarının, qeyri-dövlət təşkilatlarının dövlət dəstəyi ilə əhatə olunması, Avratlantik məkana inteqrasiya prosesinin yüksək dinamizmlə davam etdirilməsi və digər pozitiv yeniliklər Azərbaycan Konstitusiyasında yenidən bir sıra əlavə və dəyişikliklərin edilməsini tələb edirdi. 2009-cu il martın 18-də Konstitusiyaya əlavə və dəyişikliklərə münasibəti öyrənən ümumxalq səsverməsi insan hüquqlarının qorunmasında əlavə imkanlar açan islahatları dəstəklədiyini bir daha təsdiqlədi.

Respublikamızda sosial-iqtisadi inkişafa paralel şəkildə hüquqi və siyasi islahatların da genişləndirilməsinə təminat yaradan bu konstitusiya islahatı həm də xalqın hakimiyyətə olan inamının bariz təzahürüdür.

2016-cı il sentyabrın 26-da baş tutan referendumla Konstitusiyaya edilmiş əlavə və dəyişikliklərin məğzində insan hüquq və azadlıqlarının müdafiəsi, insanların şərəf və ləyaqətinin qorunması, ayrı-ayrı orqanlarda vətəndaşların müraciətlərinə baxılması, onların təhlükəsizliyinin təmin olunması və s. dururdu. Bundan əlavə, konstitusiyaya edilmiş yeni normalarla idarəetmə institutlarında yeni keyfiyyət dəyişikliklərinin yaradılması məqsədi daşıyırdı.

*Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Xalq Azərbaycanı firavan və xoş gələcəyə aparan dövlət başçısının siyasətini birmənalı şəkildə dəstəkləyir.*

**Ziyafət ƏSGƏROV,**
**Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü**

1923 *Azərbaycanın özü qədər əbədi* 2019

# Heydər Əliyevin yandırdığı ocaq heç zaman sönməyəcək




Tale elə gətirib ki, Azərbaycan geosiyasi vəziyyətinə görə daima sivilizasiyaların qovşağı, karvan yollarının kəsişdiyi yer və Böyük İpək yolunun mühüm mərkəzlərindən biri kimi, həm Qərbin, həm də Şərqin, müxtəlif siyasi mövqelərin, iqtisadi münasibətlərin, dövlətçilik formalarının güclü təsirini öz üzərində hiss etmişdir.

Tarix bizə Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Şah İsmayıl Xətai və bir çox başqaları kimi böyük şəxsiyyətlər bəxş etmişdir. Onlar əbədi olaraq millətimizin dəyərli varlığına çevrilmişlər.

Üçüncü minilliyin başlanğıcı daha bir böyük şəxsiyyəti, Azərbaycan xalqının qüruru olan Heydər Əliyevi dünyaya bəxş etdi. Onun tarixin sərt dönüşündə millət üçün etdikləri əbədi olaraq həyatda qalacaq.

Təbii ki, tarixi dövrlərin təkrarlanmasını minillik kimi ecazkar xronoloji tarixlərin əvəz olunması ilə əlaqələndirmək sadələşdirmə olardı. Lakin bununla yanaşı, hadisələrin sonsuz növbələməsində, zahirən xaotik və sistemsiz zaman axışında bir növ dövrəviləşmə vardır.

Heydər Əliyevi dünyanı dəyişmiş insanlar sırasına aid etmək olar. Müasirləri hələ də onun gördüyü işləri layiqincə qiymətləndirməyib - onu anlamaq üçün çox az vaxt keçib.

O dövrdə Heydər Əlirza oğlu Əliyevin şəxsiyyətinə diqqət yetirməyi kimin və nəyin təhrik etdiyini söyləmək çətindir: onun üzərinə qoyulmuş vəzifələri dəqiq yerinə yetirməsi, yüksək intellekti, fenomenal yaddaşı, əmək qabiliyyətliliyi, cəsur və iradəli siması var idi.

Heydər Əliyevin namizədliyi arxasında kimin dayanmasından asılı olmayaraq, həmin adam bu insanın istənilən iş sahəsində ən möhtəşəm planları reallaşdırmağa qadir olan qeyri-adi şəxs olduğunu yaxşı bilirdi.

Hər halda 50 il öncə 14 iyul 1969-cu ildə Bakıda Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin plenumu keçirildi. Həmin ərəfədə istidən və bürküdən yanan şəhərə SovİKP MK-nın katibi İ.V.Kapitonov gəlmişdi. O, partiyanın əsas kadr işçisi idi və onun gəlişi adətən yerli rəhbərlikdə dəyişikliklərlə əlaqələndirilirdi. Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi barədə Azərbaycan KP MK-nın qərarı respublikanın həyatında əhəmiyyətli dəyişikliklərin həyata keçiriləcəyinə ümidlə bütün vicdanlı adamları, sakinləri sevindirdi.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əlirza oğlu Əliyev 1969-cu ilin avqust ayında MK-nın birinci plenumunda tarixi nitqində sənayedə və kənd təsərrüfatında olan vəziyyətin sistemli analizini təqdim etdi.

Həmin dövrdə Azərbaycan milli gəlirin artımına görə ittifaqda ən son yerdə idi. Yaranmış vəziyyəti düzəltmək, yaxud heç olmasa yumşaltmaq asan iş deyildi. Azərbaycan KP MK-nın ümumi şöbəsinin müdiri Y.M.Kirsanov həmin dövrdə Azərbaycanda, xüsusən də kadr siyasəti sahəsində islahatlar apararkən Heydər Əliyevin Sov.İKP MK-nın Siyasi Bürosunun bəzi üzvləri tərəfindən necə müqavimətlərə məruz qaldığından bəhs edirdi.

Heydər Əliyev yaxşı bilirdi ki, milli gəlir, iqtisadi inkişaf probleminin uğurlu həlli respublikanın imkanlarını genişləndirəcək, onun rəhbərliyi ilə ittifaq hökuməti qarşısında Azərbaycanın taleyi ilə bağlı daha ciddi məsələlər qaldırmaq və onların həllinə nail olmaq üçün imkanlar yaradacaq. Onun işləyib hazırladığı inkişaf strategiyasında sənaye, onun strukturunun təkmilləşdirilməsi, effektivliyinin artırılması məsələləri xüsusi yer tuturdu.

Strategiyanın bütövlüyü, miqyaslığı və əsası ondan ibarət idi ki, bu xətt istehsal effektivliyinin yüksəldilməsi kimi mühüm problemin həlli ilə paralel həyata keçirilirdi. Heydər Əliyev yeni inkişaf imkanlarının axtarışı, əmək məhsuldarlığının, məhsulun keyfiyyətinin artırılması üzrə məqsədli proqramların işlənib hazırlanması istiqamətində sistemli iş həyata keçirdi. Böyük fəxr hissi ilə qeyd edirdi ki, yüksək əmək effektivliyi uğrunda mübarizə Azərbaycan tarixinin qızıl səhifələrindən biridir.

Sovet dönəmində yaşamış və işləmiş şəxslər bilirlər ki, sərt komanda - administrasiya iqtisadiyyatı şəraitində ittifaq rəhbərliyini o vaxtın mərkəzləşdirilmiş büdcəsindən subsidiyaların Azərbaycan üçün nə qədər zəruri olduğuna əmin etmək Heydər Əliyevə nəyin bahasına başa gəlirdi. Təkcə Bakını və ətraf kəndləri içməli su ilə təmin etmək üçün uzunluğu 150 kilometr olan Kür su kəmərinin tikintisinə respublika rəhbəri ittifaqın xəzinəsindən 400 milyon rubl - o dövrün məzənnəsinə görə 550 milyon dollar ala bilmişdi. Abşeronun su sisteminin bərpasına həmin mərkəzləşdirilmiş büdcədən hər il 27 milyon rubl, yenidən qurulmasına 15 milyon rubl ayrılırdı. Lakin, hətta SSRİ çərçivəsində belə daha əhəmiyyətli və miqyaslı olan başqa layihələr də var idi. O cümlədən, Sovet İttifaqının ən iri məişət kondisionerləri zavodu - BMKZ.

Bundan əlavə, Kür, Tərtər çayları, Arpaçay üzərində elektrik stansiyaları kaskadı - HES tikilir, metro xətti çəkilir, pambıq, üzüm, tərəvəz istehsalı yüksəlirdi. Təbii ki, inşaat da davam edirdi. Bütün respublika faktiki olaraq böyük tikinti meydançasına bənzəyirdi: mənzillər, mehmanxanalar, məktəblər, çoxsaylı mədəniyyət obyektləri, qabaqcıl texnika və proqressiv texnologiyalarla təchiz edilmiş 250 iri zavod, sex inşa edildi. İki milyondan artıq insanın mənzil şəraiti yaxşılaşdırıldı.

1970-1980-ci illərdə dərin özüllər zavodu, məişət kondisionerləri zavodu, "EHM", "Ozon", "Azelektroterm" kimi sənaye nəhənglərinin inşasına başlandı. Neft emalı sənayesinin köklü şəkildə müasirləşdirilməsi çərçivəsində "ELOU-AVT" qurğusu və bir çox digər unikal istehsal obyektləri işə salındı. Zərgərlik, ayaqqabı və tikiş fabrikləri işləməyə başladı.

Həmin dövrdə Heydər Əliyevlə ünsiyyətdə olan inşaatçılar, memarlar, layihəçilər onun şəxsi keyfiyyətləri ilə yanaşı, yüksək erudisiyasına, incə bədii zövqünə heyran qalırdı.

İndi keçmişə boylananda istər-istəməz düşünürsən ki, bütün əngəllərə rəğmən gələcəkdə müstəqil Azərbaycanda fundamental tikililərə çevrilmiş bu cür zəruri obyektləri tikmək üçün nə qədər uzaqgörən olmaq lazım gəlirmiş.

Heydər Əliyevin təşəbbüsü ilə KP MK Bürosunun "Azərbaycan SSR-də "Azneft" və "Kaspmorneft" birliklərinin təşkil edilməsi haqqında" 13 avqust 1970-ci il tarixli qərarı Azərbaycanda neft işinin yenidən təşkil olunması üzrə iri iqtisadi islahatların başlanğıcını qoydu. Həmin qərar bilavasitə bizim respublikada neft və qaz hasilatı, eləcə də quyuların qazılması üzrə idarə strukturlarını təmərküzləşdirməklə, həmin vaxta qədər Moskvadan həyata keçirilən funksiyaları onlara ötürməyə imkan verirdi.

Onun əsəri - dərin özüllər zavodu. 1 oktyabr 1970-ci ildə Heydər Əliyev "Qum adası"nda dəniz neftçiləri ilə görüşərkən o və onunla gələn digər qonaqlar adaya avtomobillərdə, quru yolu ilə gəlmişdi. Bu, Xəzərin fəthinin necə əminliklə və ardıcıllıqla həyata keçirildiyinin bariz sübutudur.

Azərbaycan üçün tamamilə yeni iqtisadi sahələrin, xüsusən elektronika, müdafiə kompleksi obyektlərinin meydana gəlməsi Heydər Əliyevin adı ilə bağlıdır. Maşınqayırmanın, fundamental və tətbiqi elmlərin inkişafında sıçrayış baş verdi. Kosmos sahəsində elmi araşdırmalara başlanıldı. Bu sahədəki bir çox işləmələr ittifaq proqramına müvafiq olaraq yerinə yetirilirdi.

Qarşıya qoyulmuş vəzifələrin reallaşdırılması Azərbaycan iqtisadiyyatının tarixində mühüm rol oynadı. 1970-1980-ci illərdə əsas sahələrdə istehsalın həcmi əvvəlki onilliklə müqayisədə, demək olar ki, üç dəfə artdı, əkinçilikdə məhsuldarlıq təxminən iki dəfə çoxaldı. 1980-ci ilin sonlarında Azərbaycan əmək məhsuldarlığının səviyyəsinə görə ittifaq üzrə 14-cü yerdən 1-ci yerə yüksəldi. Azərbaycan dotasiyasız respublika oldu.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın həmin illərdə nail olduğu fundamental nəticələr keyfiyyətin dinamik inkişafı dövrü kimi tarixə yazıldı. Bu nailiyyətlər Azərbaycanın iqtisadi bazasının formalaşmasında və inkişafında həlledici rol oynadı. 1970-1980-ci illərdə yaradılmış elmi-texniki potensial olmasaydı, müstəqil Azərbaycan bir çox çətinliklər və problemlərlə qarşılaşa bilərdi.

Heydər Əliyevin qeyri-adi keyfiyyətləri Moskvada yaşayıb işlədiyi dövrlərdə daha aydın şəkildə təzahür etdi. 1982-ci ildə Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunması və Siyasi Büronun üzvü seçilməsi kifayət qədər özünü doğrultmuşdu, həmin vaxt artıq bütün ölkə onu istedadlı lider kimi tanıyırdı.

Mən MK-nın birinci katibi Heydər Əliyevin referenti vəzifəsində işləyərkən onun tapşırığı ilə xalq təsərrüfatının müxtəlif istiqamətləri və sahələri üzrə külli miqdarda milli ədəbiyyat hazırladığımızı yaxşı xatırlayıram. Heydər Əliyev onun taleyinə nə dərəcədə mürəkkəb fəaliyyət sahəsinin düşdüyünü yaxşı anlayır, başqa miqyaslı çətinliklərlə qarşılaşacağını başa düşür, biliyinə və erudisiyasına baxmayaraq, yeni işinə ciddi hazırlaşırdı.

Bütün bu kitabları nəinki oxumaq, hətta onlardan çıxarışlar etməyə, qarşısında duran yeni vəzifələrin həll olunmasında yeni baxışı formalaşdırmağa necə vaxt tapdığını bilmirəm. Təkcə onu bilirəm ki, sonralar Moskvada böyük mütəxəssislər - akademiklər, professorlar, elm və mədəniyyət xadimləri Heydər Əliyevlə görüşlərdən sonra onun problemlərin dərinliyini bilməsinə heyran qalır, situasiyanı dəqiq və xırdalıqlara qədər incələmək və işi sona çatdırmaq bacarığına valeh olurdular.

Moskvadakı fəaliyyəti dövründə Heydər Əliyevlə işləmək şərəfinə nail olmuş hər kəs həmin dövrü fərəhlə xatırlayır. Onu həm uzaq Sibirdə, həm isti Özbəkistanda, Ukrayna və Moldovada, Latviya və Estoniyada hörmətlə qarşılayırdılar. Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev problemlərin həlli ilə bağlı harada olurdusa olsun, rəhbərlik və xalq onu sevinc və hörmətlə qəbul edirdi. İnsanları özünə cəlb etmək qabiliyyətinə malik olmaqla, onların problemlərini hərtərəfli bilərək, milli xüsusiyyətlərə hörmətlə yanaşaraq, o, hər yerdə özününkü kimi qəbul olunurdu.

Bütün bu üstün cəhətlərini sadalayaraq onun respublikaya rəhbərlik dövrünə boylananda, çətinlikləri və qələbə sevinclərini onunla paylaşan insanı, dostu və silahdaşı, sadiq ömür yoldaşı, bu dünyadan vaxtsız köçən Zərifə xanım Əliyevanı xatırlamaya bilmirəm.

Zərifə xanımı yaxından tanıyanlar mənəvi təmizliyə, dərin düşüncəyə, qadın məlahətinə malik olan, insanlarla ünsiyyətdə çox sadə bir xanımı xatırlamaya bilməz. Özü görkəmli alim - oftalmoloq, tibb elmləri doktoru olan Zərifə xanım Əliyeva eyni zamanda işini ailə, həyat yoldaşı ilə bağlı qayğılarla birləşdirə bilən qadın idi və o dövrün Sovet dövlətinin ən böyük xadimlərindən birinin məhsuldar və rahat işləməsi üçün evdə hər cür şərait yaratmağa çalışırdı.

Bu gün Azərbaycan bütün dünyada tanınır. O, dünya birliyinin qəbul olunan nüfuzlu üzvüdür. Dünya işlərində səs hüququna malikdir.

1918-ci ildə demokratik respublika elan edilən Azərbaycan beynəlxalq hüquq subyekti olmasına, dünya millətləri birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışırdı. XX əsrin sonlarında bu tarixi missiyanı həyata keçirmək vəzifəsi Azərbaycan xalqının qəbul olunmuş lideri, mahir diplomat və təcrübəli siyasətçi Heydər Əliyevin payına düşdü.

Azərbaycanın müstəqillik əldə etməsi ilə suveren dövlətin xarici siyasətinin məqsədləri, məzmun və istiqaməti barədə məsələ kəskin şəkildə ortaya çıxdı. Onun əsas prinsip və yanaşmalarını işləyib hazırlamaq zərurəti yarandı. Heydər Əliyev məhz bunu etdi.

Ölkə Prezidenti olandan sonra Heydər Əliyev qətiyyətlə çəkişmələrdən yorulmuş cəmiyyətdə ictimai-siyasi sabitliyi təmin etdi, iqtisadiyyatı bazar islahatları yoluna yönləndirdi. Heç kim üçün sirr deyil ki, 1990-1993-cü illərdə bir tərəfdən erməni təcavüzkarlığı, yüz minlərlə qaçqın və məcburi köçkün, digər tərəfdən isə hakimiyyət böhranı ölkə iqtisadiyyatını enişə doğru aparırdı. 1993-1994-cü illərdə böhran vəziyyəti pik həddə çatdı. İnflyasiya olduqca yüksək səviyyədə idi. Ölkənin xilası üçün düzgün yol tapmaq zərurəti yaranmışdı. Bunu Heydər Əliyev bacardı. 1995-1996-cı illərdə nəhayət ki, iqtisadiyyat böhran vəziyyətindən çıxaraq ardıcıl surətdə inkişaf etməyə başladı. Başqa sözlə desək, ölkə durğunluq vəziyyətindən çıxıb inkişaf yoluna qədəm qoydu. Bu yolda Heydər Əliyev çox çətinliklərin öhdəsindən gəldi. Strateji planlara və layihələrə mane olmağa çalışan qüvvələrin gizli və aşkar müqavimətini, çevriliş cəhdlərinin, sui-qəsdlərin qarşısını qətiyyətlə aldı.

Müstəqil ölkədə yeni ictimai-siyasi quruluş bərqərar oldu. Suverenlik elan olunandan sonra yeni Azərbaycan yaradılmağa başlandı.

Heydər Əliyev böhran vəziyyətində olan iqtisadiyyatın dirçəlməsi üçün dəqiqliklə düşünülmüş strategiya seçərək müdrikliklə neft amilinə üstünlük verdi. Dünya iqtisadiyyatına sürətli inteqrasiya, xaricdən maliyyə resurslarının cəlb olunması yeganə düzgün yol idi. Heydər Əliyev dünya təcrübəsini, neftlə zəngin olan ölkələrin keçdiyi yolu dərindən təhlil edərək Azərbaycanın öz yolunu, inkişaf modelini müəyyənləşdirdi.

Tarixi reallıq və milli mənafe dünya siyasətinin başlıca elementlərindəndir. "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir" - deyən ölkə lideri xarici siyasətin başlıca məqsədini məhz bu cür formalaşdırdı. Heydər Əliyev milli müstəqilliyin əsasını təşkil edəcək prinsipləri müəyyən etdi: milli müstəqillik, milli müdafiə, müxtəlif dövlətlərlə qarşılıqlı əməkdaşlıq sistemi.

Heydər Əliyevin suveren dövlətin Prezidenti vəzifəsində həyata keçirdiyi fəaliyyət - Azərbaycanın beynəlxalq aləmdə tanınmasına, yaxın və uzaq xarici ölkələrlə ikitərəfli münasibətlərin bərqərar olmasına, beynəlxalq və regional təşkilatlarla fəal əməkdaşlığa əsaslanırdı. Bu, Azərbaycanın yeni dövlətlərarası münasibətlər sisteminə sivil şəkildə daxil olduğu dövrdür. Bu gün Azərbaycan dünyaya açılır və burada özünü təsdiq edir.

Müstəqil Azərbaycanın rəhbəri Heydər Əliyevin həyata keçirdiyi sülhpərvər xarici siyasi kurs beynəlxalq aləmdə geniş təsdiqini tapdı. O, hər zaman dünya birliyinə Azərbaycan dövlətinin və xalqının açıqlığını nümayiş etdirdi. Azərbaycan diplomatiyasının blokların və ittifaqların çoxvariantlılığına oriyentasiyası, çoxvektorluluğu, onun yeni və ənənəvi tərəfdaşlar arasında münasibətlərin balanslaşdırılması istiqamətindəki səyləri bütün dünyada tanındı və bəraət qazandı.

Birbaşa dialoq zamanı Qərb və Şərq ölkələrinin böyük liderləri Azərbaycan Prezidentinin misilsiz siyasi təcrübəsindən, dərin düşüncəsindən, islahatçılıq fəaliyyətinin miqyasından danışırdı.

Dəmir iradəyə, güclü intellektə və erudisiyaya, natiqlik istedadına malik peşəkar siyasətçi xüsusiyyətləri Heydər Əliyevə planetin ən nüfuzlu siyasi liderləri sırasına daxil olmağa imkan verdi. Onun özünəməxsus danışıqlar aparmaq üslubu var idi. Heydər Əliyev danışıqlar apardığı tərəfdaşlarına təsir etmək üçün müxtəlif forma və fəndlərə malik idi. Bunu həm Çində, həm Rusiyada, həm də ABŞ-da müşahidə etmək mümkün idi. Vəziyyətin necə olmasından asılı olmayaraq o, hər zaman uğur qazanırdı. Belə ki, bildiyi hər şeydən istifadə edirdi: bəzən çoxsaatlıq ciddi danışıqlar aparır, bəzən natiqlik istedadını işə salır, bəzən valeh edir, bəzi hallarda isə hazırcavab zarafatlara keçirdi.

Bütün rəhbərliyi dövründə Heydər Əliyev dünya azərbaycanlılarının milli özünüdərk və birlik, həmrəylik hissinin gücləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti həyata keçirirdi. Xarici səfərlər zamanı onun Azərbaycan diasporunun nümayəndələri ilə keçirdiyi görüşlər, ardınca həyata keçirdiyi konkret siyasət dünya azərbaycanlılarının milli özünüdərk və qürur hissinin güclənməsinə, müxtəlif ölkələrdəki Azərbaycan icmalarının mütəşəkkilliyinin yüksəlməsinə, onların tarixi Vətən ilə əlaqələrinin möhkəmlənməsinə güclü təkan verdi.

Ümummilli lider Heydər Əliyevin itkisi Azərbaycan üçün böyük faciəyə səbəb oldu. Lakin millət müdriklik və məsuliyyət nümayiş etdirərək onun layiqli varisi İlham Əliyevi ölkə Prezidenti seçdi.

Respublikanın yeni Prezidenti İlham Əliyev yüksək və məsuliyyətli vəzifədə olduğu ilk illərdən başlayaraq ölkənin maliyyə-təsərrüfat və iqtisadi inkişafı mexanizmləri sahəsində dərin biliklərə malik olduğunu nümayiş etdirdi. Onun ekstremal situasiyalarda qərar qəbul etmək bacarığı, istənilən təzyiqə qarşı dura bilmək qabiliyyəti, dövlət əhəmiyyətli işlərdə qətiyyətlə davranması bu gün ümumi diqqət predmetinə çevrilmişdir. Burada söhbət, həmçinin onun dövlət elitası ilə işləmək bacarığından, insanlara qarşı humanist münasibət göstərmək xüsusiyyətindən gedir.

Məşhur Azərbaycan bəstəkarı Firəngiz Əlizadə Prezident haqqında bu cür söyləmişdir: "Gen, ata və ananın misalında yüksək tərbiyə, mükəmməl təhsil, intellekt".

Ümumi qəbul olunmuş bir həqiqət var: liderin xarakteri millətin müqəddəratını və firavanlığını təmin edir. Orta statistik Azərbaycan vətəndaşının fikri belədir: İlham Əliyev Heydər Əliyevin yolunu davam etdirərək xalqı ardınca aparmaq və dövləti idarə etmək bacarığını tam nümayiş etdirmişdir.

İlham Əliyev Prezident vəzifəsindəki fəaliyyətinin elə ilk günlərindən başlayaraq daxili və xarici siyasət məsələləri ilə fəal məşğul olmağa başladı. O, dünyanın qabaqcıl ölkələrinin, beynəlxalq təşkilatlarının rəhbərləri ilə bir sıra danışıqlar və işgüzar görüşlər keçirdi. Azərbaycanın ərazi bütövlüyü, Qafqazda sülhün bərpa olunması, iqtisadi qarşılıqlı əlaqə imkanlarının genişləndirilməsi məsələləri diqqət mərkəzində saxlanıldı.

Prezident qanunvericilik sahəsində dövlət quruculuğu proseslərinin ardıcıllığının, Azərbaycanın Avropa Birliyinə daha sıx inteqrasiyasının təmin olunmasına yönəlmiş mühüm addımların təşəbbüskarı oldu. İlk növbədə regionların inkişafı istiqamətində tədbirlər görüldü. Bölgələrin hər birində istifadə olunmamış təbii, iqtisadi, intellektual imkanlar açılmış, əhalinin məşğulluğu təmin olunmuş, xarici sərmayələrin cəlb olunması üçün əlverişli şərait yaradılmışdır.

Bütün bunların müsbət tendensiya olmasına baxmayaraq, hələ ki, kifayət deyil. Məhz buna görə Prezident İlham Əliyev diqqəti qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi üzərində cəmləşdirir. Hökumət nümayəndələrinə müraciəti zamanı o, çox maraqlı fikir söyləmişdir: "Biz siyasətimizi elə qurmalıyıq ki, sanki Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələrində, ilk növbədə isə qeyri-neft sektorunda infrastrukturu inkişaf etdirmək lazımdır. Yalnız bu yolla biz Azərbaycanın hərtərəfli inkişaf etmiş dövlətə çevrilməsinə nail ola bilərik".

Bu bəyanatın xüsusi şərhə ehtiyacı yoxdur. Bu istiqamət öz miqyasına və məzmununa görə bir neçə onillik ərzində inkişaf strategiyasında prioritet istiqamət kimi qəbul olunacaq.

Şübhəsiz ki, neft ölkə inkişafının başlıca amili olaraq qalır. Lakin onun bazasında iqtisadiyyatın digər sahələrinin sürətləndirilməsi vacibdir.

Son 15 il ərzində Azərbaycan İlham Əliyevin rəhbərliyi altında dinamik inkişaf dövrünü yaşayır, ölkəmizin qarşısında duran vəzifələr müvəffəqiyyətlə yerinə yetirilir. Bir sıra ölkələrin bir neçə onillik ərzində qət edə bildiyi inkişaf mərhələsini Azərbaycan 15 il ərzində sürətlə keçərək müasirləşdirmə yoluna qədəm qoymuşdur. Ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artmışdır. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan (2004) 46 milyard dollara çatmışdı. (2018). 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar həcmində sərmayə qoyulubdur.

Ötən dövr ərzində Azərbaycan Cənubi Qafqazın qabaqcıl dövləti kimi dünya birliyindəki mövqeyini daha da möhkəmləndirdi.

Azərbaycan Respublikası ölkəmizin ərazi bütövlüyünü qoruyan və dünyanın ən güclü orduları sırasına daxil olan yüksək hərbi hazırlığa malik silahlı qüvvələrə malikdir. 2016-cı ilin aprel ayında milli ordumuz ermənilərin təhrikinə layiqli cavab verərək düşmənə sarsıdıcı zərbə endirdi və zəbt olunmuş ərazilərin bir qismini işğalçılardan azad etdi.

Xalq deyiminə görə, "Ata yaşadığı ömür ərzində ağac əkməli, ev tikməli və oğul böyütməlidir". Heydər Əliyev bunların hamısını yerinə yetirməyə müvəffəq olmuşdur! Bütün ömrü boyunca o, çiçəklənən Azərbaycan adlı bir bağ saldı. Müstəqil Azərbaycan adlı ev tikdi. Bu gün onun şərəfli və məsuliyyətli işini davam etdirən layiqli oğul böyütdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş və məqsədyönlü fəaliyyəti Heydər Əlirza oğlu Əliyevin yandırdığı ocağın heç zaman sönməyəcəyinə əminlik yaradır.

***Mixail ZABELİN,***
***Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü***

2004 Heydər Əliyev Fondu 2019







# 15 illik missiyanın şərəfli tarixi

**İnsan düşüncəsinin ən dərin qatlarında qərar tutmuş hikmət çeşməsində əsrlərlə çağlayan Nizami Gəncəvi bir zamanlar yazırdı ki, "Aqillər kam alır yaxşılıqlardan…"**
**Həqiqətən, yaxşılıqlara tapınaraq xeyir əməllərlə ad çıxarmaq aqilliyin, müdrikliyin başqa adıdır. Bu, əsl kamilliyə qovuşmaqdır. İnsanlığın ən ali məqamıdır.**
**Hərdən düşünürəm ki, müasir dünyamızda bəşəriyyətin qürur yeri, yalnız gündən-günə yeni möcüzələr yaradan texnologiyalar, böyük elmi kəşflər, iqtisadi nailiyyətlər olmamalıdır.**

Bəşəriyyətin qüruru əslində bu qədər qarışıq, qloballaşan dünyamızda adi insanı, onun qayğılarını, problemlərini bir an unutmayanlardır. Onlara sevgi, mərhəmət göstərənlərin ruhani hissləridir. Çünki dünyanı yaşadan, onun gələcəyə ümidini formalaşdıran məhz bu ülvi duyğulardır. Bu duyğuları qəlbində yaşadan insanlardır. Onları real həyat mənzərələrinə çevirən şəxsiyyətlərdir. Onlar yoxdursa, deməli, sabaha ümid etməyə dəyməz. Bu kəslərin varlığı isə mənəvi dəyərlərin də dünya durduqca var olması deməkdir.

## Dəyərlərdən gələn işıq

Xeyirxahlıq hissi sövq-təbii yaranmır. İnsan anadangəlmə xeyirxah olmur. Bu davranışları başqalarından görüb-götürür. Aldığı tərbiyədən, oxuduğu kitablardan, baxdığı filmlərdən, ideal kimi yanaşdığı şəxsiyyətlərin nurlu əməllərindən əxz edir. Buna görə də bizim hər birimizin xeyirxahlıq ruhunda tərbiyələndirəcək örnəklərə ehtiyacımız var.

Yaradılmasının 15-ci ildönümü tamamlanan Heydər Əliyev Fondu haqqında düşüncələrimə bu qeydlərlə başlamağım əsla təsadüfi deyil. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fond 15 ildə tarixi layihələri ilə cəmiyyətə xeyirxahlıq toxumları səpib. Ölkəmiz üçün, ümumən bəşəriyyət üçün dəyəri misilsiz olan nəcib əməllərə imza atıb. Düşünürəm ki, bu layihələrdən önəmlisi fondun çağdaş bəşəriyyət üçün yaratdığı nümunələrdir. Əsrlərdən bəri insanlıq tarixi ilə yol gələn xeyirxahlıq, mərhəmət, şəfqət, başqalarına sevgi kimi ali duyğulara həyat verməsidir. Bu hissləri ən azı Azərbaycan insanları üçün munis dəyərə çevirməsidir. Mehriban xanımın fəaliyyətindən əxz edilmiş örnək ruhunda yetişən gəncliyimizdir. Azərbaycanın öz gələcəyinə doğru bu mənəvi dəyərlər işığında yola çıxmasıdır.

## İnsan xəyallarının gücü

Xeyriyyəçilik Azərbaycan xalqının ruhundan gəlir. Uzun illər ərzində həm epos təfəkkürümüzün təsiri, həm dini inancımızın təlqinləri, həm də qaynayıb-qarışdığımız mədəniyyətlərdən əldə etdiyimiz təcrübə ilə Azərbaycanda böyük xeyriyyəçilik ənənələri formalaşıb. Bu ənənəni yaşadan və daha da inkişaf etdirən böyük mesenatlarımız olub. Azərbaycanda qadın fəallığı ənənələrinin formalaşması və inkişafı da ilk vaxtlar XIX əsrin sonu, XX əsrin əvvəllərində elə məhz xeyriyyəçilik zəminində baş verib.

Heydər Əliyev Fondunun fəaliyyətə başlaması faktı Azərbaycanda böyük ənənələri və tarixi olan xeyriyyəçilik məktəbini daha da dirçəltdi. Bu ənənələrə yeni bir həyat verdi. Bu hərəkatın önündə fondun prezidenti Mehriban xanım Əliyeva gedir. Mehriban Əliyeva fəaliyyətinin elə ilk dövrlərində sübut etdi ki, insan zəkasının, insan əməllərinin gücü ən əlçatmaz xəyalları və arzuları da reallaşdırmağa qadirdir. Bu, Mehriban Əliyeva üçün təkcə yüksək vəzifə borcu kimi qalmadı, özünü bəşəri mənada daha geniş əks etdirdi. Bu fəaliyyət vətənsevərliyə, iradəyə və qüdrətə kökləndi. Fondun prezidenti bu fəaliyyəti sadəcə bir ictimai vəzifə kimi yerinə yetirmədi, nə etdisə, qəlbinin səsi ilə etdi. İnsanlar üçün bu illər ərzində nə iş gördüsə, bu, onun zəngin mənəviyyatının diktəsi oldu. Ona görə də Mehriban xanımın başlatdığı hər bir iş uğurla nəticələndi. İnsanların böyük məhəbbətini qazandı.

Bu fondun fəaliyyəti ulu öndər Heydər Əliyevin milli dövlətçilik ideyalarının əbədiləşməsinə və həyata keçirilməsinə böyük töhfə oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimizin cəmiyyətə ünvanlanan ali məqsədlərinin reallaşdırılması yolunda tarixi nailiyyətə çevrildi.

## Aydın hədəflərdən böyük nailiyyətlərə

Yarandığı gündən fond qarşısına böyük məqsədlər qoymuşdu. Artıq 15 ildir ki, Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bu vəzifələrin hər birini böyük uğurla, ulu öndərin adına layiq bir tərzdə yerinə yetirir. Ümummilli liderin ölkəmizin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək verir. Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək göstərir. Fond elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid davamlı proqram və layihələr hazırlayıb həyata keçirir. Azərbaycanın və xarici ölkələrin fondları, QHT-ləri, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirir. Onlarla birgə layihələr reallaşdırır. Yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olur. Xüsusi qayğıya ehtiyacı olan insanlara əl uzadır.

Vətəndaşlarımızın yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılması, öz qabiliyyətlərini göstərərək daha da inkişaf etdirmələrinə dəstək verilməsi də bu missiyaya daxildir.

Heydər Əliyev Fondu milli mədəniyyətimizin geniş təbliği, sağlam mənəvi dəyərlərimizin qorunması ilə bağlı mühüm işlər görür. Uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət edir. Ölkəmizin nüfuzunu yüksəklərə ucaldan beynəlxalq tədbirlər keçirir. Azərbaycan həqiqətlərini dünyaya çatdırır.

Respublikanın yaradıcı və elmi potensialının artırılmasına kömək, təhsil müəssisələrinin, tibbi təsisatların inkişafı, ətraf mühitin mühafizəsi, sağlam həyat tərzinin təbliği də Heydər Əliyev Fondunun gördüyü çoxşaxəli işlər sırasındadır. Fond cəmiyyətimizdə dini tolerantlığın bərqərar olması, vətəndaş cəmiyyəti quruculuğu, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılması sahəsində də tarixi addımlar atır.

## Təhsil gələcəkdir

Bu məqsədlərin hər biri o qədər aydın, onların həyata keçirilməsi üçün atılan addımlar o qədər real və uğurludur ki, Heydər Əliyev Fondu ötən 15 ildə cəmiyyətdə müxtəlif sahələr üzrə yardıma, dəstəyə, həssas münasibətə ehtiyac duyan, hansısa fərdi və ictimai problemlərin həllini arzulayan hər kəsin ümid yerinə, pənah qapısına çevrilib.

Düşünürəm ki, müasir dünyamızda təhsilin cəmiyyət üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini xüsusi vurğulamağa ehtiyac yoxdur. Əslində, təhsil bütün dövrlərdə inkişafın əsas hərəkətverici qüvvəsi olub. Bu gün isə təhsil hər bir cəmiyyət üçün də, fərd üçün də "olmazsa, olmaz" məsələsidir. Əgər bir cəmiyyət bu gün təhsilin inkişafı qayğısına qalmırsa, deməli, gələcək inkişafdan söhbət gedə bilməz. Yaxud bu gün təhsilə diqqət göstərən hər hansı cəmiyyətin çox tezliklə başqalarından xeyli irəli çıxması mütləqdir. Bu reallığı düzgün dəyərləndirən Heydər Əliyev Fondu fəaliyyətinin elə ilk günlərindən diqqəti təhsil sahəsinə yönəltdi. Bu diqqət Azərbaycanda təhsilin inkişafını ümumxalq hərəkatına çevirən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsində öz əksini tapdı.

Mehriban Əliyevanın təşəbbüsü ilə bu 15 il ərzində ölkə boyu yüzlərlə yeni məktəb inşa olundu. Bir çox məktəblər əsaslı təmir edilərək yeniləndi. "Təhsilə dəstək" layihəsini uğurla həyata keçirən Heydər Əliyev Fondunun bu layihəsi sərhədlər aşdı. Pakistanda zəlzələ zamanı dağılmış qızlar məktəbini yenidən inşa etdirdi. Həştərxanda ulu öndər Heydər Əliyevin adını daşıyan məktəb, həmçinin Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda kor və zəif görən uşaqlar və gənclər üçün fəaliyyət göstərən mərkəz yenidən quruldu. Fondun dəstəyilə Gürcüstan, Misir, Rumıniya və Hollandiyada da bir sıra məktəblər yenidən quruldu və əsaslı təmirə cəlb olundu.

Bakıda yəhudi uşaqlar üçün 450 şagird yerlik "Xabad-Or-Avner" təhsil mərkəzi və fransız liseyi yaradıldı. Fond məktəbəqədər təhsil müəssisələri ilə bağlı mühüm addımlar atdı. "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramını irəli sürdü və bu proqram çərçivəsində çox əhəmiyyətli işlər görüldü.

## Sevgi ilə görülən işlər

"Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı Heydər Əliyev Fonduna ictimaiyyət arasında daha da böyük rəğbət qazandırdı. Proqram çərçivəsində ölkə üzrə 30-dan çox uşaq müəssisəsi əsaslı təmir edildi və avadanlıqla təchiz olundu. Uşaq evlərində tərbiyə alan və 18 yaşı tamam olmuş gənclər üçün Mehriban xanım Əliyevanın təşəbbüsü ilə indiyədək yalnız xəyallarda yaşayan bir arzu - Bakıda və bəzi bölgələrimizdə yeni mənzillər inşa edildi, həyatlarını müstəqil şəkildə davam etdirmələrinə imkan verən, normal məvacibli iş yerləri ilə təmin olundular.

Kimsəsiz körpələr, ahıllar üçün nəzərdə tutulmuş müəssisələrdə yaşayan insanlar bu gün də Heydər Əliyev Fondunun, şəxsən Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunublar. Əlbəttə, hər bir dövlət bu kateqoriyadan olan vətəndaşlarının problemlərinin həlli, onların himayəsi üçün imkanı daxilində nələrsə etməyə çalışır. Mehriban xanımın gördüyü işlər isə sadəcə dövlət tədbiri, hər hansı rəsmi öhdəlik deyil, bir övladın öz valideynlərinə göstərdiyi qayğıdır, hərarətli münasibətdir. Üstəlik, birinci xanım statusu onun sosial məsuliyyətini daha da artırır və öz müsahibələrinin birində etiraf etdiyi kimi, insanların rifahı naminə humanitar proqramların səmərəliliyinin gücləndirilməsinə yönəldilmiş bütün mümkün imkanlardan istifadə etməyə sövq edir. Mehriban xanım Əliyeva bütün bu savab işləri qəlbinin sevgisi, insanlığa olan sonsuz məhəbbəti ilə görür və ona görə bu münasibət insanlara bu qədər doğmadır, onun adı hər bir vətəndaşımıza bu qədər əziz, bu qədər dəyərlidir.

Heydər Əliyev Fondu bu illər ərzində ölkəmizdə səhiyyənin inkişafı ilə bağlı həyata keçirilən dövlət siyasətinə də güclü dəstək verib və bu dəstək indi də davam etməkdədir. Paytaxtda və bölgələrdə tikilən çoxsaylı səhiyyə ocaqları ilə yanaşı, fond cəmiyyəti narahat edən bir çox problemlərin həllinə yardım göstərir. Diabetli uşaqlara ən yüksək qayğı, "Talassemiyasız həyat naminə" layihə uğurla icra edilir. Fondun təşəbbüsü ilə Bakıda müasir Talassemiya Mərkəzi tikilib. Bu gün həmin mərkəz yüzlərlə körpəni həyata bağlayan vasitədir. Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi də inşa olunub.

## Sağlam həyat, sağlam ruh

Fond idman, ekologiya, sağlam həyatın təbliği sahəsində də nəcib işlər görür. Bu qurumun dəstəyi ilə ölkə üzrə bir çox idman qurğuları inşa olunub. "Hərəmiz bir ağac əkək!" aksiyası uğurla baş tutub. 2016-cı ildən start verilən və o vaxtdan bəri ölkəmizdə "Küləyə qalib gəl" devizi altında gözəl bir ənənəyə çevrilən "Bakı Marafonu" da fondun çox gözəl təşəbbüslərindən biridir. Bu qaçış marafonuna qoşulan insanların sayı hər il artır. Elə mayın 5-də keçirilmiş sonuncu marafonda 22 mindən çox şəxs iştirak etdi. Belə bir göstərici bu qədər insanın, xüsusilə gənclərimizin sağlam həyat tərzini seçmələrinin, ziyanlı vərdişlərdən uzaq olmalarının xoş bir müjdəsidir.

## Dəyərlərimizin keşiyində

Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində həyata keçirdiyi fəaliyyət də böyük rəğbət doğurur. Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin təbliği və inkişafı məramı ilə yaratdığı nəhəng layihələrin müəllifidir. Məhz Mehriban xanımın xidmətləri sayəsində ilk dəfə muğam sənətimiz UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına nadir inci kimi daxil edilib. İndi isə bu siyahıda "İçərişəhər" Tarixi-Memarlıq Kompleksi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, Azərbaycan xalçaları, milli aşıq sənəti, həmçinin Novruz bayramımız yer alıb. Bakıda Beynəlxalq Muğam Mərkəzi və bir çox bölgələrimizdə yerli muğam mərkəzləri inşa olunub. "Qarabağ xanəndələri" musiqi albomu nəşr edilib. Hər il muğam televiziya müsabiqələrinin keçirilməsi dünya üçün maraqlı bir tədbirə çevrilib. Bu müsabiqələrdə qədim muğam ənənələrimizi, muğam sənətkarlarımızın ustalığını öz saf səslərində yaşadan onlarla gəncimizin istedadı kəşf olunur, böyük sənətə doğru yollar açılır.

Heydər Əliyev Fondu bir çox beynəlxalq musiqi festivallarının da təşkilatçısıdır. Bu sırada hər il keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalının mükəmməlliyini, əhatə dairəsinin genişliyini xüsusi qeyd etmək lazım gəlir. Ölkəmizin uğurla evsahibliyi etdiyi misli görünməmiş "Eurovision-2012" Beynəlxalq Mahnı Müsabiqəsinin, 2015-ci ildə Bakıda keçirilmiş I Avropa Oyunlarının, 2017-ci ildə paytaxtımızda təşkil edilmiş İslam Həmrəyliyi Oyunlarının möhtəşəmliyi də Heydər Əliyev Fondunun müxtəlif layihələrin icrası üzrə əldə etdiyi zəngin təcrübənin və unikal zövqün, dərin biliyin bəhrəsi idi.

Bu beynəlxalq miqyaslı tədbirlərin təşkilati işlərinə rəhbərliyi bilavasitə Mehriban xanım Əliyeva edirdi. Məhz onun əzmkar fəaliyyəti, təşkilatçılıq qabiliyyəti, öz işinə yüksək məsuliyyətli münasibəti sayəsində Azərbaycan bu tədbirlərlə aləmə ün saldı. Qərblə Şərqin qovuşuğunda, fərqli mədəniyyətlərin təmas nöqtəsində yerləşən ölkəmiz sülh, sabitlik, sivilizasiyalararası dialoq məkanı kimi dünyada daha da məşhurlaşdı.

## Dialoq və tolerantlıq məkanı

Azərbaycanın dünyaya tarixən malik olduğu fərqli mədəniyyətlərə hörmət və tolerantlıq ənənələri ruhunda təqdim edilməsi Heydər Əliyev Fondunun əsas fəaliyyət prioritetlərindəndir və fond bu nadir missiyanı uğurla davam etdirir.

Mehriban xanımın təşəbbüsü ilə reallaşdırılan "Tolerantlığın ünvanı. Azərbaycan" layihəsi çərçivəsində müxtəlif dini obyektlərdə - Pir Həsən ziyarətgahında, Bakıdakı Müqəddəs Mirodaşıyan Qadınlar Kafedral Kilsəsində və Müqəddəs Məryəm Kilsəsində, Gəncədə Həzrəti Zeynəb Məscidində, Fransanın müxtəlif regionlarındakı kilsələrdə restavrasiya işləri görülüb. Strasburqda XIV əsr Kafedral Kilsəsinin vitrajları bərpa edilib. Həştərxanda Knyaz Vladimirin abidəsi ucaldılıb. Fond Luvr Muzeyində aparılan bərpa işlərində iştirak edib. Mehriban Əliyevanın təşəbbüsü ilə Müqəddəs Roma katakombaları bərpa edilib. Və bu addım beynəlxalq ictimaiyyət tərəfindən müsəlman dünyasının xristianlığın müqəddəs abidələrinin qorunub saxlanmasına Azərbaycan töhfəsi kimi böyük rəğbət doğurub.

Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə hər il ölkəmizdə ənənəvi qaydada qlobal humanitar forumlar, beynəlxalq mədəniyyət tədbirləri təşkil edilir. Dünyanın tanınmış elm, sənət, siyasət adamları, öz sahələrinin görkəmli liderləri paytaxtımızda toplaşır. Bakıdan dünyaya sülhün qorunması, konfliktlərin mədəniyyət müstəvisində həlli, insanın inkişafı, multikultural dəyərlərin dəstəklənməsi məzmunlu çağırışlar ünvanlanır. Bu gün Azərbaycan dövlətinin bəşəriyyətin sabahı naminə gördüyü işlərdən biri olaraq dünyanın BMT kimi ən nüfuzlu təşkilatları tərəfindən təqdir edilən "Bakı prosesi" təşəbbüslərinin reallığa çevrilməsində də Heydər Əliyev Fondunun, Mehriban xanım Əliyevanın inkaredilməz böyük əməyi var.

## Azərbaycan həqiqətlərinin carçısı

Heydər Əliyev Fondu Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, torpaqlarımızın düşmən tərəfindən işğalı ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasında da çox mühüm işlər görür. Fondun dəstəyi ilə hər il Xocalı soyqırımının ildönümü dünyanın yüzlərlə ölkəsində qeyd olunur. Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Təşkilatının (İKT) Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən etibarən fəaliyyətə başlamış "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası ermənilərin xalqımıza qarşı törətdikləri cinayətləri dünyəvi miqyasda ifşa edir. Düşmənlə informasiya müharibəsində üstünlüyü Azərbaycanın xeyrinə dəyişir.

Fond gənclərimizin vətənpərvərlik duyğularını yüksəldir. Tarixi keçmişimizə, xalqımızın qan yaddaşına həssas münasibətilə seçilən Heydər Əliyev Fondu Quba Soyqırımı Memorial Kompleksinin yaradılmasında və 1918-ci ildə erməni daşnaklarının Şamaxıda törətdikləri mart qırğınları zamanı yandırılan Şamaxı Cümə məscidinin əsaslı bərpasında da yaxından iştirak edib.

## Mədəniyyət diplomatiyası

Fondun Azərbaycan dövləti və xalqı qarşısındakı ən böyük xidmətlərindən biri də görkəmli şəxsiyyətlərimizin dünyada tanıdılmasıdır. Azərbaycan xalqının müxtəlif sahələrdə böyük şəxsiyyətlər yetirmiş xalq kimi malik olduğu milli potensialın, yaradıcılıq ruhunun bütün Yer üzündə sərgilənməsidir.

Heydər Əliyev Fondunun beynəlxalq əlaqələrinin uğurları sayəsində akademik Yusif Məmmədəliyevin, görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 100 illik yubileyləri UNESCO səviyyəsində qeyd olunub. Dünya şöhrətli Azərbaycan rəssamı Tahir Salahovun Parisdə fərdi sərgisi təşkil edilib. Fransanın sənət nümunələrinin toplandığı "Fransız inciləri" kolleksiyası Bakıda nümayiş olunub. Heydər Əliyev Fondunun təşəbbüsü ilə paytaxtda Müasir İncəsənət Muzeyi açılıb. Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi fəaliyyətə başlayıb. Heydər Əliyev Mərkəzində Heydər Əliyev Muzeyi yaradılıb. Fond indiyə qədər dünyanın bir çox məşhur şəhərlərində - Parisdə, Moskvada, Berlində, Romada, Vatikanda, Bolqarıstanda mədəniyyət tədbirləri təşkil edib. Təkcə bir faktı vurğulayaq ki, məhz Heydər Əliyev Fondunun nüfuzu sayəsində Azərbaycan Vatikanda sərgi təşkil edən ilk müsəlman ölkəsi kimi tarixə düşüb.

Heydər Əliyev Fondu dünyanın ən tanınmış mədəniyyət mərkəzlərində Azərbaycan mədəniyyəti evlərinin və mərkəzlərinin yaradılması ideyasına dəstək verir. Bir çox xarici ali təhsil müəssisələrində Azərbaycan dili və mədəniyyəti mərkəzləri yaradılır. Bütün bunlar Azərbaycanın mədəniyyət diplomatiyası müstəvisində əldə etdiyi nailiyyətlərdir.

## Azərbaycan qadınının uğur rəmzi

Real, işıqlı əməllərlə, hər hansı vədlərə deyil, nəticələrə əsaslanan qlobal işlərlə Heydər Əliyev Fondu, onun rəhbəri Mehriban xanım Əliyeva ulu öndərin ideallarını yaşadır. Ümumbəşəri dəyərlərə layiqli töhfələr verir. Fondun fəaliyyəti vətəndaşların sonsuz sevgisi, rəğbəti ilə qarşılanaraq müasir Azərbaycan tarixinin parlaq bir qütbünə çevrilir. Bir Azərbaycan qadınının rəhbərlik etdiyi fondun 15 illik uğuru, Mehriban xanımın öz xalqının həssas ruhunun və ülvi arzularının reallaşmasına yönəldilmiş hərtərəfli, geniş fəaliyyəti, ümumilikdə Azərbaycan qadınının dünyaya səs salan nailiyyətləridir.

Mehriban xanım Əliyeva bu gün hər bir Azərbaycan insanı üçün humanizm və qayğı kimi keyfiyyətləri təcəssüm etdirən arzuların rəmzidir. Gözəllik, xeyirxahlıq və mərhəmət nümunəsidir. Bir insana, Azərbaycan qadınına, şəxsiyyətə xas ən gözəl keyfiyyətlərin ümumiləşmiş simvoludur. Bu gün Azərbaycan xalqı Mehriban Əliyeva şəxsiyyəti ilə fəxr edir, ondan nümunə götürməyə çalışır. O, cəmiyyət həyatında fəal iştirak istəyində olan qadınlarımız üçün bir meyardır. Mehriban xanım, eyni zamanda, insanlarımız üçün təkcə lider və ya ictimai xadim deyil, həm də köməyə ehtiyacı olanlara yardım əlini uzatmağa hazır olan etibarlı dayaq, xeyirxah insandır. Azərbaycan vətəndaşı onu ailəsinin doğma bir üzvü kimi görür, sevgi bəsləyir, ona inanır, ona güvənir.

Bu ali münasibət, böyük məhəbbət, ehtiram hər hansı təbliğatın, kampaniyanın gücü ilə formalaşmayıb. Bu, Mehriban xanımın gördüyü sərhədsiz real işlərdir, hər kəsə faydası çata bilən nəcib əməlləridir.

Bilirik ki, fond insanların rifahı, ayrı-ayrı vətəndaşların problemlərinin həllinə yönələn işlərin heç mindənbirini ictimailəşdirmir. Tanıdığımız kimlərinsə müəyyən bir müşkülünün fondun dəstəyi hesabına həll edildiyini sıx-sıx eşidirik. Yaxud insanların sosial problemlərinin fondun köməyi ilə aradan qalxdığını sonradan təsadüfən bildiyimiz faktlar da çox olub. Əgər bu nurlu əməllərin hamısı qələmə alınsa, 15 il ərzində fondun, Mehriban xanım Əliyevanın köməyi sayəsində həyat qazanmış, çətinliklərdən qurtulmuş insanların taleyi fonunda nəzərdən keçirilsə, bu xeyirxah, alicənab addımlar cild-cild kitablara sığmaz.

Fərqindəyəm ki, yazıdakı qeydlər də Heydər Əliyev Fondunun ötən 15 il ərzində gördüyü işlərin çox məhdud bir hissəsini əhatə etdi və bu şərəfli tarixin bir çox faktları yazının əhatə dairəsindən kənarda qaldı. Amma mühüm olan bu deyil. Əsas bəşər övladına qürurverən missiyadır.

O, davam edir və şərəfli tarixin yeni səhifələrini yaradır.

**Nurlana ƏLİYEVA,**
**Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü,**
**YAP Qadınlar Şurasının sədri, professor**

# Leyla Əliyeva Bakının Buzovna qəsəbəsindəki 1 saylı psixonevroloji sosial xidmət müəssisəsini ziyarət edib

Mayın 9-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva paytaxtın Buzovna qəsəbəsindəki 1 saylı psixonevroloji sosial xidmət müəssisəsinin sakinlərini ziyarət edib.











AZƏRTAC xəbər verir ki, 1974-cü ildə yaradılan 1 saylı psixonevroloji sosial xidmət müəssisəsi Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir olunaraq bu ilin fevral ayında istifadəyə verilib. Yenidənqurma işlərindən sonra burada yaşayanların sağlamlığı və rahatlığı üçün müasir standartlara uyğun şərait yaradılıb.

Heydər Əliyev Fondu növbəti dəfə burada xüsusi qayğıya ehtiyacı olan insanlar üçün şənlik təşkil etdi.

Fondun vitse-prezidenti Leyla Əliyeva tədbirə gələrək müəssisənin sakinləri ilə görüşdü, onlarla söhbət etdi, burada yaradılan şərait, bu kateqoriyadan olan insanların müalicəsi ilə maraqlandı.

Xüsusi qayğıya ehtiyacı olanlar 1 saylı psixonevroloji sosial xidmət müəssisəsində gün ərzində gördükləri işlərdən danışdılar, necə əyləndiklərini söylədilər, təəssüratlarını bölüşdülər.

Müəssisəyə sosial xidmətə ehtiyacı olan psixotik simptomatika mərhələsinə çatmayan şəxslər qəbul edilir.

Ölkəmizdə sağlamlıq imkanları məhdud olan, xüsusi qayğıya ehtiyac duyan şəxslərin tibbi və sosial reabilitasiyasının gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Dövlət bu qəbildən olan şəxslərin çoxsaylı sosial proqramlara, o cümlədən reabilitasiya, pulsuz istirahət və texniki-bərpa təminat proqramlarına cəlb olunmasını həyata keçirir. Dövlət səviyyəsində bu istiqamətdə reallaşan tədbirlərə Heydər Əliyev Fondunun da xüsusi töhfəsi var. Bu cür layihələrin icrası həm də onu göstərir ki, nəcib təşəbbüsləri və layihələri ilə seçilən Heydər Əliyev Fondunun xüsusi qayğıya ehtiyacı olanların sosial məsələlərinin həlli, onların müalicə və reabilitasiya işinin yüksək səviyyədə təşkil edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər davamlı xarakter alıb.

1 saylı psixonevroloji sosial xidmət müəssisəsinə Heydər Əliyev Fondunun hədiyyələri təqdim edildi.

# Bakı Kitab Mərkəzində “Yolum keçir Qarabağdan” adlı rəsm sərgisi açılıb

Mayın 8-də Bakı Kitab Mərkəzində “Yolum keçir Qarabağdan” adlı rəsm sərgisi açılıb və eyniadlı kataloqun təqdimat mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.















Mərasimi Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva açaraq bildirib ki, sərgi Azərbaycanın dilbər guşələrindən olan Şuşanın işğalının 27-ci ildönümünə təsadüf edir.

G.Rzayeva qeyd edib ki, Kitab Mərkəzi ilə “My Way” Uşaq və Yeniyetmələrin Yaradıcılıq Mərkəzinin müştərək layihəsi olan “Yolum keçir Qarabağdan” adlı sərgidə 40-a yaxın əsər nümayiş etdirilir. Buradakı rəsmlər yaşı 12-18 arasında olan gənc rəssamlar tərəfindən çəkilib. Bu gənclər ABŞ vətəndaşlarıdır və onlardan heç biri Qarabağda olmayıb. Bəzilərinin valideynləri vaxtilə Azərbaycanda yaşasalar da, bu uşaqların əksəriyyəti ölkəmizi görməyib. Həmin uşaqlar Qarabağı görməmələrinə baxmayaraq, rəsmlərdə bu cənnət məkanını çox gözəl, sevə-sevə təsvir ediblər. Bu əsərlərin içində sanki bir ruh dolaşır. Yaradıcılıq Mərkəzinin direktoru Alyona Bədəlovanın səyi və təşkilatçılıq qabiliyyəti sayəsində bütün bu aylar ərzində uşaqlar Qarabağı yağlı boya ilə kətan üzərinə köçürüblər.



Yaradıcılıq Mərkəzi qeyri-kommersiya təşkilatının təsisçisi və direktoru Alyona Bədəlova layihə barədə məlumat verib. Bildirib ki, təmsil etdiyi təşkilat Nyu Yorkda beş ildir fəaliyyət göstərir və incəsənət, rəqs, musiqi, idman və mədəni irsin öyrənilməsi vasitəsilə icmaları bir araya gətirir. Təşkilatda çalışan uşaqlar ABŞ vətəndaşlarıdır. Artıq dördüncü sərgidir ki, keçiririk. Onlar sadəcə, müəllimlərindən və sosial şəbəkələrdən Qarabağ və onun acı taleyi haqqında məlumat alaraq qəlblərindən keçəni kağıza və kətana köçürüblər. Əlbəttə, uşaqlar hələ peşəkar rəssam deyillər, onlar bu sənətin astanasında dayanıb öz seçimlərini etməyə hazırlaşırlar. Bəlkə də kimsə bu yolu davam edib dünyaca məşhur rəssam olacaq, nə vaxtsa “Yolum keçir Qarabağdan” sərgisi üçün çəkdiyi rəsmini mükəmməlləşdirib daha böyük və mötəbər sərgilərdə nümayiş etdirəcək.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar Rzayev, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti Fərhad Bədəlbəyli, Azərbaycan Rəssamlar İttifaqının katibi, xalq rəssamı Ağaəli İbrahimov Azərbaycanın mədəniyyət beşiyi Şuşanın işğal gününə təsadüf edən və Qarabağ mövzusuna həsr olunan sərgi barədə fikirlərini bölüşüblər. Bildirilib ki, Azərbaycan xalqı üçün Dağlıq Qarabağ mövzusu qanayan yaradır. “Şərqin konservatoriyası” adlandırılan Şuşa Azərbaycanın bir sıra görkəmli müğənnilərinin, musiqiçilərinin, böyük bəstəkarlarının və dirijorlarının vətənidir.

Natiqlər əminliklərini ifadə ediblər ki, uşaqların səmimiyyətlə və böyük məhəbbətlə çəkdikləri bu rəsmlər çox yaxın gələcəkdə Azərbaycanın ayrılmaz parçası olan Qarabağda və onun çırpınan ürəyi Şuşada “Yolum keçir Qarabağdan” sərgisində nümayiş etdirilərək hamımızın zövqünü oxşayacaq.

Sonra tədbirin bədii hissəsində “Simurq” uşaq musiqi festivalının qalibləri və laureatları, həmçinin Bülbül adına musiqi məktəbinin şagirdləri çıxış ediblər.

Sərgi ziyarətçilər tərəfindən maraqla qarşılanıb.

# Bakıda IDEA İctimai Birliyinin “Şəhər ekologiyası” layihəsi həyata keçirilir












Bakıda IDEA İctimai Birliyinin şəhər mühitinə xas olan və keçmişdə geniş yayılmış fauna növlərinin qorunması və qaytarılmasına yönəlmiş “Şəhər ekologiyası” layihəsi həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, mayın 9-da layihə çərçivəsində Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Bakının Velopark ərazisində yerləşən yaşıllıq sahəsinə 20 sincab buraxılıb.

Məlum olduğu kimi, vəhşi təbiətin qorunub saxlanması üzrə çoxşaxəli səylərlə yanaşı, Leyla Əliyevanın təşəbbüsü ilə şəhər mühitinə aid olan növlərin mühafizəsi istiqamətində də geniş tədbirlər həyata keçirilir. Bu xüsusda, Bakıda küçə heyvanlarının qorunmasına yönəlmiş IDEA Heyvanlara Qayğı Mərkəzi fəaliyyət göstərir, şəhər boyu pişiklər üçün xüsusi evciklər qurulur və digər işlər aparılır. “Şəhər ekologiyası” layihəsi Bakı və onun ətrafındakı ictimai yerlərin şəhər mühitində rahat yaşayıb çoxala bilən heyvan və quş növləri ilə zənginləşdirilməsi, eləcə də bu növlərin qorunub saxlanması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Bütün bu səylərin əsas məqsədi şəhərdə yaşayan insanlarla ətraf mühit arasında ahəngliyin yaradılmasından, daha sıx və daha sağlam əlaqənin möhkəmləndirilməsindən ibarətdir.

Keçmişdə Bakı şəhəri mühitində çoxsaylı sincab və tutuquşular məskunlaşmışdır ki, onlar parklarda və yaşıllıqlar mövcud olan digər ərazilərdə insanlar arasında sərbəst dolaşmışlar. Lakin ötən əsrin sonlarında mövcud olan ekoloji problemlər səbəbindən bu növlərin sayı kəskin azalmışdı. Son illər ölkədə aparılan geniş yaşıllaşdırma və abadlaşdırma işləri, xüsusən də IDEA İctimai Birliyinin səyləri sayəsində Bakıda qanunsuz ağac kəsilməsi hallarının azaldılması və saysız-hesabsız yeni ağacların əkilməsi nəticəsində şəhərdə bir çox fauna növlərinin qaytarılması üçün münbit şərait yaradılıb.

# Ümumxalq məhəbbəti

## Ulu öndər Heydər Əliyevin Fəxri xiyabandakı ziyarətgahı növbəti dəfə bu məhəbbətin şahidinə çevrildi

Adı tarixə yazılan şəxsiyyətləri nə zaman unudur, nə də ictimai-siyasi burulğanlarda varlığını qoruyub saxlayan xalq. Təbii ki, talelərə yazılan sərt sınaqlardan əzmlə çıxaraq xalqın sevimlisinə çevrilmək asan deyil. Bunu tarix dəfələrlə təsdiqləyib.



Bu şərəf isə çoxlarına nəsib olmayıb. Xalqımızın ümummilli lideri, ictimai-siyasi fəaliyyəti və bütövlükdə mənalı həyatı örnəyə çevrilən ulu öndər Heydər Əliyevin də məhz belə şəxsiyyət kimi tanınmasını və dühası qarşısında baş endirilməsini şərtləndirən səbəb çoxdur.

May ayının 10-u ümummilli lider səviyyəsinə yüksəlmiş Heydər Əliyevin anadan olduğu gündür. 2003-cü ildən, bir qayda olaraq, may ayının 10-da xalqımız Fəxri xiyabanda ulu öndərin məzarını ziyarət edir, onun qurub-yaratdığı müasir Azərbaycana layiqli vətəndaş olduqlarını təsdiqləyirlər. Dünən də Fəxri xiyabana aparan yollarda ziyarətçilərin əlindən tərpənmək olmurdu. 2003-cü ilin soyuq, şaxtalı dekabr günündən fərqli olaraq, dünənki ziyarətçilərin çöhrəsində həm də bir qürur vardı. Bunun səbəbləri az deyildi. Ən əsası odur ki, ulu öndərin memarı olduğu müstəqil Azərbaycan nəinki Cənubi Qafqazda, hətta inkişafına görə dünyanın aparıcı dövlətləri sırasında olduğunu təsdiqləyir. Ümummilli liderin müəyyənləşdirdiyi siyasi kurs dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ulu öndərin şəxsiyyətinə hörmət və ehtiram təkcə mənsub olduğu ölkədə deyil, onun hüdudlarından çox-çox uzaqlarda da özünü daim göstərib. Bu ümumxalq və ümummilli məhəbbətin şahidinə çevrilənlərin arasında əcnəbilər də az deyildi. Qardaş Türkiyədən builki ziyarətə gələnlərin sayının daha çox olması ilk andaca diqqəti cəlb edirdi. Türkiyənin Kayseri şəhərinin Yeşilhisar ilçesindən olan Mustafa Babacan buna qismən də olsa aydınlıq gətirdi: "...Ulu öndər Heydər Əliyev M.K.Atatürk kimi Türk dünyasının tarixi şəxsiyyətlərindən biri olub. Onun doğum günü ziyarətinə gəlmək hər birimizin müqəddəs borcudur. Türkiyədə hakim AKP-nin və bələdiyyə məclisinin üzvüyəm. İki qardaş xalqın sevinclə kədəri birdir. Ulu öndər heç də təsadüfi yerə deməmişdir: "Türkiyə-Azərbaycan bir millət - iki dövlətdir". Bu birliyi qorumaq hər iki ölkənin vətəndaşlarının qardaşlıq borcudur. Azərbaycanın dövlət başçısı cənab İlham Əliyev ötən il növbəti dəfə xalqın etimadı ilə Prezident seçildikdən sonra ilk səfərini yenə də qardaş Türkiyəyə etdi. Bu, türk xalqları üçün bir mesajdır. Ulu kökə, tarixi ənənələrə söykənən qardaşlıq münasibətlərimiz möhkəmləndikcə hərtərəfli inkişafımıza da şərait yaranır. İnşallah, Qarabağ sorunu da öz həllini tapar. Orada da təntənəli qələbəni alqışlayarıq".

"Azərbaycanın regionda lider dövlətə çevrilməsi xalqımızın ümummilli liderinin - həyat və fəaliyyətini bütünlüklə müstəqil respublikamızın çiçəklənməsinə, onun dünya birliyində layiqli yer tutmasına həsr etmiş Heydər Əliyevin xidmətidir". Bu fikirlər Kəlbəcər rayonunun Başlıbel kəndindən məcburi köçkün Oqtay Salahova məxsusdur. O, sözünə davam edərək bildirdi ki, ümummilli liderin uzaqgörən və alternativsiz siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Müstəqil Azərbaycan dövlətinin qurulmasında və dövlətçiliyin qorunub saxlanmasında xilaskarlıq simvoluna çevrilən ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərini saymaqla qurtarmaz. Bizim hər birimizin bu ziyarəti isə ölkə vətəndaşılarının vətənə və dövlətinin qurucusuna əbədi ehtiramıdır".

Bakı şəhəri Xətai rayonundakı 95 nömrəli tam orta məktəbin müəlliməsi Ofelya Babayeva qeyd etdi ki, ulu öndərin həyat və fəaliyyətinə nəzər salanda qürur hissi keçiririk: "Yaxşı bilirik ki, hələ gənclik illərindən fəallığı ilə öz həmyaşıdlarından fərqlənən Heydər Əliyev zamanın qalibi olaraq tarixə imza atmaq yolu ilə irəlilədi. Vətən və dövlət adamı olduğunu işıqlı əməlləri, fəaliyyəti ilə təsdiq etdi. Bu gün cənab Prezident İlham Əliyev onun siyasətini çox uğurla davam etdirir. İnanırıq ki, bizi də işğal altında qalan doğma yurdlarımıza məhz bugünkü dövlət başçısının siyasəti qaytaracaq. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda apardığı mübarizə, əzmkarlıq nümunəsi bunu söyləməyə bizə əsas verir".

Həmsöhbətimiz Nahidə Əliyeva 9 yaşlı oğlu Muradla Rusiyadan gəlib. BDU-nun məzunu olmuş həmyerlimiz Nijni-Novqorodda yaşayır. Həyat yoldaşı Fikrət Əliyev həkim, o özü isə şəhər sosial müdafiə fondunun şöbə müdiridir. Ulu öndərə əbədi ehtiramının sübutudur ki, hər il ziyarətə gəlirlər. Nahidə xanım bildirdi ki, bu gün saysız-hesabsız ziyarətçilərdən biri olmağından qürur hissi keçirir. Axı gənclərin azad, müstəqil ölkənin vətəndaşları olması məhz ulu öndərin davam etdirilən siyasəti ilə mümkün olub: "Dünya xalqları da ümummilli liderimizin şəxsiyyətinə dərin ehtiram göstərir. Burada gördüyümüz izdiham isə dahi öndərin milyonların qəlbində yaşamasının sübutudur. Gələcək nəsillər tarixi şəxsiyyətimizin həyat və fəaliyyətini daim örnək biləcəklər. Azərbaycan xalqının xoş və firavan həyatına ömrünü həsr edən ümummilli lider Heydər Əliyevin bəşəri şəxsiyyət olması yeni tariximizin bütün səhifələrində özünü təsdiqləyir. Dövlətimizin gənclər siyasəti bu gün çox uğurla və məqsədyönlü şəkildə həyata keçirilir. Azərbaycan gənci elmi və intellektual dünyagörüşü ilə dünyadakı həmyaşıdları arasında seçilir..."

Vətənimizi sərhədlərdən kənardan daha yaxşı görən və inkişafına sevinən, tarixi ulu məkanlardan gəlmiş soydaşlarımız da dünənki ziyarətçilərin arasında az deyildi. Təbriz-Qaradağ Aşıqlar Birliyinin sədri, folklorşünas-tədqiqatçı Böyükbəy Ələkbəroğlu müasir Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin əvəzolunmaz siyasətinin davamı ilə ölkəmizin nəinki regionda, artıq dünya çapında söz sahibi olmasından, eləcə də humanist siyasət yürüdərək Azərbaycan xalqının sevimlisinə çevrilən Prezident İlham Əliyevlə İrandakı soydaşlarımızın da fəxr duyduğunu dilə gətirdi: "Bilirsiniz, millət tarixində və ədəbiyyatında yaşarlı və uzunömürlü olur. Ulu öndər hakimiyyətdə olduğu hər iki dönəmdə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə böyük önəm verib. Mənim uşaqlıq və gənclik illərimə təsadüf etsə də, ümummilli lider Heydər Əliyevin yürütdüyü siyasət şimallı-cənublu xalqımızın ürəyincə olub. Bu günlərdə hər iki xalqı vaxtilə qovuşduran Xudafərin körpüsünün yaxınlığından Azərbaycanın, Qarabağımızın işğal altında qalan torpaqlarına baxırdım. Ürəyim yara oldu. İki addımlıqda - Cəbrayılın Araz sahillərindəki xarabalıqlarına baxmaq dəhşət olsa da, qəlbimdə bir duyğu baş qaldırdı. Vaxt var idi, Xudafərin həsrət körpüsü adlanırdı. Azərbaycanın müstəqilliyinin bərpasından sonra vüsal körpüsünə çevrilən Xudafərini erməni daşnaklarının dağıtmasına baxmayaraq, o tay-bu tay xalqımızın gediş-gəlişi bərpa edildi. İnşallah, Azərbaycan Prezidentinin siyasi xətti ilə düşmən üzərində xalqımız Aprel döyüşlərində olduğu kimi, qələbə də çalacaq. Tezliklə, biz işğalda qalan torpaqlarımıza da qovuşacağıq. Çünki ulu öndərin siyasi xətti bu gün cənab İlham Əliyev tərəfindən müdrikcəsinə, təmkinlə davam etdirilir. Azərbaycanda qonşu və qardaş İran xalqından gələn sənət adamlarına göstərilən diqqətdən çox razıyıq. Var olsun bu birlik!"

...Ulu öndərin anadan olmasının 96 illiyi ilə əlaqədar xalqımız dövlətimizin memarı və qurucusunun müqəddəs məzarını növbəti dəfə ziyarət etmək üçün dünən axşama kimi dəstə-dəstə Fəxri xiyabana üz tutmuşdu. Ziyarətçilər belə qüdrətli dövlətin banisi olduğu üçün ümummilli liderlə daim fəxr edəcəklərini dilə gətirir, Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə respublikamızın inkişafında bilik və bacarıqlarını bundan sonra da əsirgəməyəcəklərini əminliklə ifadə edirdilər.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

# Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü anılıb





Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazirlik, komitə və baş idarələrin rəhbərləri, hərbi hissələrin komandirləri, elm, təhsil müəssisələrinin və ictimaiyyətin nümayəndələri də abidə önünə tər güllər düzüblər.

Mayın 10-da Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində də ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə tədbirlər keçirilib.

# Naxçıvanda faşizm üzərində Qələbənin 74-cü ildönümü qeyd olunub





Mayın 9-da Naxçıvan şəhərindəki Xatirə kompleksində faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibətilə tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İkinci Dünya müharibəsi veteranları ilə görüşüb, onları faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibətilə təbrik edib.

Sonra Ali Məclisin Sədri abidənin önünə gül dəstəsi qoyub, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsini ehtiramla yad edib. Mərasim iştirakçıları və ictimaiyyətin nümayəndələri də abidə önünə gül dəstələri düzüblər.

Naxçıvan Hərbi Qarnizonunun nümunəvi Hərbi Orkestrinin ifasında marşlar səslənib.

# Müharibə veteranlarına avtomobillər təqdim edilib





Mayın 9-da - faşizm üzərində Qələbənin 74-cü ildönümündə Naxçıvan şəhərində 2 nəfər 1941-1945-ci illər müharibəsi iştirakçısına, 2 Azərbaycan Vətən müharibəsi veteranına və 3 hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlığını itirmiş şəxsə "NAZ-Lifan-320" markalı minik avtomobili təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərasimdə iştirak edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: "Azərbaycanda möhkəm dövlətçilik mövcuddur. Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik prinsipləri ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətçilik olan yerdə isə vətənpərvərlik, inkişaf, sabitlik və sosial qayğıya ehtiyacı olanlara dövlət qayğısı olur. Bu gün ölkəmizdə inkişaf və sabitlik vardır. Sosial himayəyə ehtiyacı olan insanlara dövlət qayğısı göstərilir. Müharibə veteranlarına və sosial himayəyə ehtiyacı olanlara minik avtomobillərinin təqdim olunması da Azərbaycan dövlətçiliyinin mühüm göstəricilərindəndir".

Sonra Ali Məclisin Sədri avtomobillərin açarlarını təqdim edib.

# FHN və Baş Prokurorluq "İsrafil Hüseynov" gəmisində baş verən partlayışla bağlı birgə məlumat yayıb

Mayın 8-də "Saipem" şirkəti tərəfindən icarəyə götürülmüş "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "İsrafil Hüseynov" borudüzən gəmisində texnoloji avadanlıqda yaranan nasazlığın aradan qaldırılması məqsədilə aparılan təmir işləri zamanı partlayışla müşayiət olunan yanğının baş verməsi səbəbindən şirkətin Azərbaycan Respublikası və digər xarici ölkələrin vətəndaşlarından ibarət 14 əməkdaşı müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Fövqəladə Hallar Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, faktla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 162.1-ci (texniki təhlükəsizlik və əmək mühafizəsinin başqa qaydalarının pozulması) maddəsi ilə cinayət işi başlanıb, Fövqəladə Hallar Nazirliyinin və prokurorluğun təcrübəli əməkdaşlarından ibarət istintaq qrupu yaradılıb.

Hadisə zamanı xəsarət almış şəxslərin təxirə salınmadan sahilə çıxarılaraq Mərkəzi Neftçilər Xəstəxanasına yerləşdirilməsi təmin olunub. Yüksəkixtisaslı həkimlər cəlb edilərək zərərçəkənlərin müayinə və müalicələri Səhiyyə Nazirliyinin rəhbərliyi tərəfindən xüsusi nəzarətə götürülüb.

Hazırda Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzi, Fövqəladə Hallar Nazirliyi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin ekspert və mütəxəssislərinin iştirakı ilə hadisənin baş vermə səbəblərinin və sair xüsusatların araşdırılması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Hadisə nəticəsində zərər çəkmiş vətəndaşlardan, eləcə də hadisə ilə bağlı məlumatlı şəxslərdən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin 404-39-00, Fövqəladə Hallar Nazirliyinin 112, Baş Prokurorluğun 440-78-13 nömrəli "Qaynar xətt" əlaqə mərkəzlərinə zəng etmələri xahiş olunur.

## X.B.Yusifzadəyə Heydər Əliyev Mükafatının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda neft sənayesinin inkişafında xüsusi xidmətlərinə görə Xoşbəxt Bağı oğlu Yusifzadəyə Heydər Əliyev Mükafatı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2019-cu il*

## Azərbaycan mədəniyyət və incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Abdullayev Ağasəlim Sahib oğlu
Ağamalızadə Müzəffər Məmməd İbrahim oğlu
İslamzadə Akif Qədir oğlu
Quliyeva Səidə Əbülfəz qızı
Mütəllimova Firəngiz Bəhər qızı
Nərimanova Zemfira Əli qızı
Rəhimli İlham Əziz oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2019-cu il*

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153; № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50) 194.5-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"194.5. Adlı sənədli qiymətli kağız, habelə daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı ilə bağlı tələbin güzəşti həmin qiymətli kağızlar üzrə indossament yolu ilə həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2019-cu il*

## İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abbasov Tariyel Abbasqulu oğlu
Abdullayev Mətləb Fətəli oğlu
Abdullayeva Xurşid Lütfəli qızı
Abdurahmanov Yusif Fikrət oğlu
Adıgözəlov Yalçın Vasif oğlu
Axundov Bəxtiyar Ağayar oğlu
Allahverdiyev Vasif Kərim oğlu
Allahverdiyeva Naibə Siyavuş qızı
Babayev Zeynalabdin Abdulla oğlu
Babayeva Stella Rza qızı
Bağırov Tamerlan Kamal oğlu
Baliyeva Natalya Gennadyevna
Bayramov Təyyar Allahverdi oğlu
Bəxtiyarov Rəşad Bəhram oğlu
Bulax Svetlana Mixaylovna
Butenko İqor Leonidoviç
Cəfərov Mircavad Mirqəfər oğlu
Cəfərov Novruz Adil oğlu
Cəfərov Samir Qədir oğlu
Eldarova Nəsibə Novruz qızı
Eyyubov Musa Eyyub oğlu
Əbdülsəmədova Zemfira Feyzulla qızı
Əhmədli Bəhruz Vaqif oğlu
Əhmədov İlkin Qənbər oğlu
Ələkbərzadə Mehriban Zaur qızı
Əliyev Ələkbər Həsən oğlu
Əliyev Sərvər Bəhlul oğlu
Əliyev Vahid Əsgər oğlu
Əliyev Vaqif Səfər oğlu
Əliyeva Böyükxanım Həsənbala qızı
Əliyeva Dilarə Asif qızı
Əliyeva Gülüstan Həsən qızı
Əliyeva Nərgiz Arzu qızı
Əliyeva Şəfəq Rəsul qızı
Əmirbəyova Rita Cəmil qızı
Əmirov Cəmil Fikrət oğlu
Əsədova Məleykə Əlifağa qızı
Əsədova Səbinə Çingizovna
Əsədullayev Toğrul Mirnazim oğlu
Əsgərov Əli Rəhim oğlu
Əsgərov Əsgər Əkbər oğlu
Əsgərov Qoçaq Məhərrəm oğlu
Əzizov Əzizağa Ağayar oğlu
Ferşdant Makar Sergeyeviç
Göyçayev Teymur Ənvər oğlu
Gözəlova İradə Vaqif qızı
Hacıyeva Fidan Hacıağa qızı
Hacıyeva Sevil İnşalla qızı
Heybətov Anar Mithət oğlu
Heydərova Çinarə Yaşar qızı
Həmidov Əjdər Qüdrət oğlu
Həsənquliyev Kazım Feyruz oğlu
Həsənova İradə Aslan qızı
Həşimova Növrəstə Xanəli qızı
Hüseynov Tofiq Əbdülrəhim oğlu
Hüseynova Gülnarə Hüseyn qızı
Hüseynova Kamilla Fikrət qızı
Hüseynova Laləzar Ramil qızı
Xanızadə Bəxtiyar Oqtay oğlu
Xanlarova Mehriban Aslan qızı
Xasıyev Nadir Şənbə oğlu
Xəlilzadə Rüfət Eldar oğlu
İbrahimova Səbinə Vaqif qızı
İbrahimova Şəhla İbrahim qızı
İmanov Vaxtanq Yaşar oğlu
İmanova Gülbacı Əliəkbər qızı
İsgəndərova Sənubər Sabir qızı
İsmayılov Qurban İbrahim oğlu
Kazımov Nicat Mirəziz oğlu
Kərimov Fəxrəddin Nuri oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Cəmilə Rüstəm qızı
Kərimova Qərinə Rəhim qızı
Qarayev Elnar Cəfər oğlu
Qasımov Məmmədsəfa Məmmədəli oğlu
Qasımov Yusif Əli oğlu
Qəmbərli Ayaz Vahab oğlu
Qəmbərov Salman Hüseyn oğlu
Qəribova Nargilə Dursun qızı
Qrafkin Boris Fyodoroviç
Quliyev Cəmil Elşad oğlu
Quliyev Elxan Əlibala oğlu
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyev Qabil Əzizulla oğlu
Quliyev Rövşən Vaqif oğlu
Quliyeva İntizar Təhməzqulu qızı
Quliyeva Şəlalə Şahvələd qızı
Qurbanov Cahangir Qafar oğlu
Qurbanov Oruc İzzət oğlu
Qurbanova Gülzar Qurban qızı
Qurbanova Pərvanə Yaqub qızı
Mahmudov Zülfüqar Xudaverdi oğlu
Mehmandarov Mustafa Adil oğlu
Məhərrəmov Firudin Əliməmməd oğlu
Məmmədxan Ucal İsa oğlu
Məmmədov Anar Ramiz oğlu
Məmmədov Əbülfəz Səid oğlu
Məmmədov Maqsud Fazil oğlu
Məmmədov Natiq Hidayət oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədov Səyyad Çapay oğlu
Məsimov Qurban Abdulla oğlu
Məstanov Vaqif Teyyuboviç
Mikayılov Anar Şamil oğlu
Mirişli Nazim Ramiz oğlu
Mirqasımova Ayan Oqtay qızı
Mirzəhəsənov Hüseyn-Səfa Qvaməddin oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu
Mirzəyev Rafiq İsmayıl oğlu
Musayeva Səmayə Məmməd qızı
Musayeva Şükufə İmran qızı
Mustafayev Arzu Əhməd oğlu
Mustafayeva Laləzar Bəşir qızı
Nəbizadə Zabit Gülxan oğlu
Nəsirova Hicran Fətəli qızı
Nəzərov İlham İslam oğlu
Novruzova Nübar Qulu qızı
Nuriyev Nurlan Nurməmməd oğlu
Nurzadə Əli Qayıb oğlu
Osmanov Bəhram Məcid oğlu
Piriyev İvtixar Fəhrat oğlu
Poladov Əkrəm Nicat oğlu
Rüstəmov Elşən Mərdan oğlu
Sabayev Andrey Yuryeviç
Sadıqov Anar Babalı oğlu
Salahov Əbülfət Yusif oğlu
Salmanov Nicat Fərhad oğlu
Seyidov Uran Seyidmusa oğlu
Səlimli Mirbala Seyidəsgər oğlu
Səlimov Ruslan Xanbala oğlu
Səmədov Şükür Hacıbala oğlu
Spitsina Yelena Eduardovna
Süleymanova Ulduz İbrahim qızı
Şarovskaya Natalya Yuryevna
Şərifəliyeva Səidə Vahid qızı
Şərifov Munis Məhəmməd İsmayıl oğlu
Şıxəliyev Ramin Tofiq oğlu
Şirəliyev Elşən Şıxəli oğlu
Şirməmmədov Xamis Xanmirzə oğlu
Tağızadə İrana Tofiq qızı
Vahabzadə Səbinə Qulam qızı
Vəliyev Nofəl Abdulməcid oğlu
Vəliyeva Nigar Natiq qızı
Yaqubov Şıxı Miriş oğlu
Yaqubova Ella İsmayıl qızı
Zeynalov Azər Zeynalabdin oğlu
Zeynalov Elnur Əli oğlu
Zəki Mehriban Mürvət qızı
Zülfüqarov Cahangir Oqtay oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 may tarixli 62 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 1000) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2019-cu il*

## "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1566-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1566-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2019-cu il*

# "Heydər Əliyev - Azərbaycan gənclərinin ilham mənbəyi" mövzusunda tədbir keçirilib

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə mayın 10-da Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə Bakı Gənclər Mərkəzində "Heydər Əliyev - Azərbaycan gənclərinin ilham mənbəyi" mövzusunda tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Yusuf Məmmədəliyev, gənclər və idman nazirinin müavini İntiqam Babayev, təhsil nazirinin müavini Firudin Qurbanov, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, deputat Şahin İsmayılov, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov, "Space" Müstəqil Teleradio Şirkətinin prezidenti, əməkdar incəsənət xadimi, kinorejissor Vaqif Mustafayev, gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər.

Mərkəzin direktoru Rəvanə Həşimova tədbirdə çıxış edərək ölkəmizdə gənc nəslin fiziki və mənəvi tərbiyəsini, onların milli vətənpərvərlik ruhunda yetişməsini, yüksək intellektə sahib olmalarını daim diqqət mərkəzində saxlayan ümummilli lider Heydər Əliyevin müəllifi olduğu dövlət gənclər siyasətinin uğurla reallaşdırılması nəticəsində qazanılan nailiyyətlərdən söz açıb.

Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Yusuf Məmmədəliyev bildirib ki, xalqımızın müstəqil və güclü dövlətə sahib olmaq arzusunun XX əsrin sonlarında gerçəkləşməsi və müasir müstəqil Azərbaycan dövlətinin qurulması, onun uğurlu siyasi əlaqələrinin yaradılması dünya tarixində silinməz iz qoymuş dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin ötən əsrin 70-ci illərində respublikaya rəhbərlik etdiyi dövrdə bütün sahələrdə inkişafa nail olunması üçün göstərdiyi misilsiz fədakarlıq və qətiyyət müstəqilliyin bərpasından sonra Azərbaycana qarşı silahlı təcavüz və ölkə daxilində baş verən vətəndaş qarşıdurmasına baxmayaraq, müstəqilliyin qorunmasına və Azərbaycanın dinamik inkişaf yoluna çıxmasına şərait yaradıb.

Ümummilli liderin hələ sovet dövründə böyük uzaqgörənliklə və müdrikcəsinə Azərbaycanın gələcək müstəqilliyinə hərtərəfli zəmin yaratdığını vurğulayan Y.Məmmədəliyev bildirib ki, məhz ulu öndərin təşəbbüsü və qətiyyəti sayəsində Azərbaycan SSR-in Konstitusiyasında dövlət dilinin Azərbaycan dili olması ilə bağlı müddəa əksini tapdı. Dahi şəxsiyyət Azərbaycan rəhbərliyinə seçildikdən dərhal sonra ilk tədbirlərdən biri kimi gəncləri SSRİ-nin ali təhsil müəssisələrində oxumağa göndərdi. Qısa müddətdə SSRİ-nin qabaqcıl universitetlərində oxuyan azərbaycanlı tələbələrin sayı 50 nəfərdən 1000 nəfərədək artdı. Həmin şəxslər bu gün Azərbaycanın sosial-iqtisadi, mədəni, elmi inkişafında aparıcı rol oynayırlar. Ümummilli liderin qətiyyəti sayəsində Azərbaycanda hərbi təmayüllü məktəbin yaradılması və ona xalqımızın görkəmli oğlu Cəmşid Naxçıvanskinin adının verilməsi də bu baxımdan xüsusi vurğulanıb. Diqqətə çatdırılıb ki, bütün bunlar əbədiyaşar liderin ölkə gənclərinin yüksək intellektli, vətənpərvər şəxsiyyət kimi yetişmələrinə ali diqqət və qayğısının göstəriciləridir.

Prezident Administrasiyasının rəsmisi bildirib ki, ulu öndər tərəfindən əsası qoyulan gənclər siyasəti gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına, zəngin elmi potensialının yaradılmasına şərait yaradıb. Bu sahədə imzalanan fərman və sərəncamlar, qəbul edilən qanun və qərarlar, atılan addımlar nəticəsində gənclərin inkişafı üçün daha səmərəli şəraitin yaradılması gənclərlə dövlət arasında bağların daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Bu gün Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə müxtəlif istiqamətlərdə aparılan köklü islahatlar, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bilavasitə diqqət və qayğısı gənclərimiz üçün çox geniş imkanlar açıb. Ulu öndər bizə müstəqil Azərbaycanı və zəngin mənəvi irs miras qoyub. Müasir Azərbaycan gənclərinin borcu bu mirası qorumaqdır. Bugünkü Azərbaycan gəncliyi yüksək təhsilə yiyələnməli, dövlətin layiqli vətəndaşı olmalıdırlar. Əminəm ki, Heydər Əliyevin zəngin mənəvi irsi Azərbaycan gəncliyini müstəqilliyinin möhkəmlənməsinə, ölkəmizin inkişafına və milli maraqlarının təmin olunmasına bundan sonra da ilhamlandıracaq.

"Space" Müstəqil Teleradio Şirkətinin prezidenti, əməkdar incəsənət xadimi, kinorejissor Vaqif Mustafayev çıxışında ümummilli lider Heydər Əliyev ilə bağlı xatirələrini bölüşüb, dahi şəxsiyyətin əziz xatirəsinin hər bir azərbaycanlının qəlbində daim yaşayacağını bildirib. Ulu öndər Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu olduğunu deyən V.Mustafayev 1990-cı illərdə dahi rəhbərin ölkəmizi bütün sahələrdə yaşanan dərin tənəzzüldən dinamik inkişaf yoluna çıxardığını bildirib. Dahi rəhbərin ordu quruculuğu, iqtisadiyyatın, mədəniyyətin, elmin və digər sahələrin inkişafına yüksək diqqət və qayğısından söz açan kinorejissor ulu öndər Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli siyasi fəaliyyətinə həsr etdiyi filmlərindən danışıb.

Digər çıxışlarda xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin gənclərə diqqət və qayğısından söhbət açılıb, dövlət-gənclər siyasətinin uğurla həyata keçirilməsindən bəhs olunub.

Sonda kinorejissor Vaqif Mustafayevin ulu öndər Heydər Əliyevə həsr olunan "Əsl məhəbbət haqqında" sənədli filmi nümayiş etdirilib.

## "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1297-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 813; 2016, № 3, maddə 411, № 11, maddə 1756, № 12, maddə 2003; 2017, № 2, maddə 159, № 5, maddə 712, № 12 (I kitab), maddə 2222; 2018, № 5, maddə 893, № 7 (I kitab), maddə 1395; 2019, № 1, maddələr 33, 50; Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1474-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 2.4-cü maddə əlavə edilsin:

"2.4. Bu Qanun Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1078-2.2-1-ci maddəsi ilə müəyyən edilən qiymətli kağızlara şamil edilmir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2019-cu il*

## "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1567-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1567-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2019-cu il*

# Rusiya Ermənistandakı neonasist meylləri təsdiqlədi

Rusiya xarici siyasət idarəsi bir neçə gün əvvəl "Nasizmin qəhrəmanlaşdırılması, neonasizmin yayılmasına və irqçiliyin müasir formalarının, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onunla bağlı digər dözümsüzlüklərin artmasına kömək edən digər praktikaların yayılması ilə bağlı vəziyyət haqqında" hesabatını öz rəsmi səhifəsinə yerləşdirib.

Şimal qonşumuzu narahat edən məqam ondan ibarətdir ki, dünyanın bəzi ölkələrində nasizmin, neonasizmin təzahürlərinin artmasına və İkinci Dünya müharibəsinin tarixini yenidən yazmağa cəhdlər özünü büruzə verir. Artıq bütün dünya gələn il alman faşizmi üzərində böyük Qələbənin 75 illiyini qeyd etməyə hazırlaşır. Rusiya xarici siyasət idarəsi yaydığı məruzədə tarixi təhriflərə və nasizmin ideallarının təbliğinə yol verilməsindən narahatlığını bildirir. Məruzədə geniş yer alan məqamlardan biri də üç Qafqaz respublikasındakı vəziyyətlə bağlıdır. Sənəddə ciddi tənqidlərə məruz qalan Ermənistan Respublikasıdır. Nazirliyin saytında dərc edilən hesabatda deyilir ki, Ermənistanda faşizmin əlaltılarının qəhrəmanlaşdırılması meylləri reallıqdır. Burada nasist Almaniyasının əlaltılarından biri Qaregin Njdedən, artıq nasizmlə aralarında sədd itən qatı millətçi hərəkatlardan danışılır. Eyni zamanda o da qeyd olunur ki, Ermənistanda nasizmin tam bərpası və neonasist əhvali-ruhiyyələrin qızdırmalı epidemiyası müşahidə olunmasa da, keçmiş hakim partiya Üçüncü reyxlə əməkdaşlıq edən Qaregin Njde kimi millətçi siyasi liderin xatirəsinin əbədiləşdirilməsi istiqamətində addımlar atmışdır. Sənəddə dəqiqləşdirilir ki, Ermənistanın siyasi təşkilatlarının sırasında ötən il siyasi partiya kimi qeydiyyata alınan "Sasna Tsrer" millətçi partiya mövcuddur. Bu partiyanın ideologiyasının əsasında Ermənistan Respublikasının tanınmasından "cinayətkar Rusiya-Türkiyə sövdələşməsinin nəticəsi" kimi imtina etmək, "Yeni dövlətin" qurulması üçün mübarizənin labüdlüyünü təsdiqləmək dayanır. Partiya "yeni Ermənistanın" ərazisinə bugünkü Ermənistanın, Dağlıq Qarabağın əraziləri daxil edir, həmçinin bütün Ermənistan diasporunun referendum keçirmək yolu ilə "yeni dövlət"ə cəlb edilməsini düşünür. Partiyanın proqramına həmçinin "Rusiya kolonializminin tapdadığı" hüquqların bərpası, Naxçıvanla və Axuran çayından şimaldakı ərazilərin qaytarılması daxildir.

Sənədin ölkəmizə həsr edilmiş fəslində qeyd olunur ki, Azərbaycan Respublikasında neonasizm, rasizm, irqi ayrı-seçkilik mövcud deyil. Azərbaycan rəhbərliyinin səyləri ona yönəlib ki, ölkədə bütün xalqlar dinindən və millətindən asılı olmayaraq tolerant mühitdə yaşaya bilsinlər. Rusiyanın xarici siyasət idarəsinin sənədində xüsusi olaraq qeyd edilir ki, Azərbaycan sovet xalqının faşist Almaniyası üzərindəki qələbəsinin tarixi missiyasının qorunmasında, İkinci Dünya müharibəsinin tarixinin təhrif edilməsinin qarşısının alınmasında, nasizmin qəhrəmanlaşdırılmamasında Rusiya ilə bir mövqedən çıxış edir. Rusiyanın Xarici İşlər Nazirliyi (XİN) ona da diqqət yetirir ki, Azərbaycanda milli, irqi, dini ayrı-seçkilik zəminində baş verən cinayətlərdə müttəhimlərə cəza kəsilərkən bu əməllərə ağırlaşdırıcı hal kimi baxılır.

Rusiya XİN-in məruzəsində Gürcüstanda nasistlərin qəhrəmanlaşdırılmasının dövlət səviyyəsində olduğu bildirilib və bu, ölkədə geniş tənqid edilib.

Sənəddə məxsusi olaraq dilə gətirilməsə də, aydın görünən odur ki, Rusiyanın Qafqazda yeganə həmfikiri və sadiq müttəfiqi Azərbaycandır. Biz bunu Rusiyanın ədalətli seçimi kimi də qiymətləndirə bilərik.

Rusiyalı politoloq, tarixçi və hüquqşünas Oleq Kuznetsov Ermənistandakı proseslərə daha sərt qiymət verir. Alim artıq neçə ildir ki, erməni millətçiliyinin tarixi köklərini araşdırır, onların alman faşizmi ilə əməkdaşlığını tutarlı və danılması mümkün olmayan tarixi faktlarla üzə çıxarır. Maraqlısı odur ki, Kuznetsovun təqdim etdiyi faktlar sovet təhlükəsizlik orqanlarının arxivlərində uzun müddət "tam məxfilik" qrifi altında saxlanılmış, erməni faşizmini ifşa etmək gücündə olan bu sənədlər ilk dəfə ictimaiyyətin diqqətinə Bakıda təqdim edilmişdir.

Oleq Kuznetsovun araşdırmalarından aydın olur ki, 1933-cü il iyulun 16-da "Njde" ləqəbi altında tanınan Qaregin Ter-Arutunyan ABŞ-ın Massaçusets ştatındakı Bostonda keçirdiyi konfransda "Tseqekron", sonralar isə "Erməni gənclər federasiyası"na çevrilən təşkilatı təsis edir. Beləliklə, Njde erməni ariliyinə söykənən faşist ideologiyasını hərəkətə gətirərək nəzəriyyə müstəvisindən real müstəviyə, açıq fəaliyyətə keçir. Məhz həmin il alman Nasional-Sosialist Fəhlə Partiyasının lideri Adolf Hitler Almaniyanın reyx-kansleri təyin edilir və Fransada heç kimin heç vaxt yaxından tanımadığı naməlum antropoloq J.Montadon nasistlər kimi "qədim" tarixə malik xüsusi "armenoid irqi"nin olduğunu bəyan edir. Bu hadisələr artıq təsadüflər yox, erməni nasizminin ayaq alıb yeriməsi idi. Njde artıq təşkilatını yaradanda alman xalqının fürerinin dəstəyini qazanmağa çalışırdı. Alman nasistlərinin sırasına daxil olduqdan sonra onların hərbi-texniki qüdrətini erməni nasistlərinin maraqlarının təmin edilməsinə yönəltmək mümkün idi. Onun üçün alman irqinin ağalığından "armenoid irqi"nin qüdrətini vəsf etmək daha sərfəli idi.

1948-ci il noyabrın 18-də SSRİ daxili işlər nazirinin imzası ilə "Tam məxfi" qrifi altında Stalin, Molotov, Beriya, Malenkov üçün arayış hazırlanır, bir qədər sonra isə bir nüsxə də Dövlət Təhlükəsizliyi Nazirliyinin idarə rəisi general-polkovnik A.Z.Kabulova verilir. Sənəddə III Reyxlə erməni millətçilərinin əməkdaşlığını təsdiq edən aşağıdakı məlumatlar yer almışdı: "Daşnaklar komitələri olan bütün ölkələrdə almanları maraqlandıran məlumatları toplayırlar. Bu, ilk növbədə Sovet İttifaqına, Mərkəzi Amerika ölkələrinə və İngiltərəyə aiddir. Xüsusi vacib hallarda daşnaklar bu ölkələrdəki alman nümayəndəlikləri ilə birbaşa əlaqə saxlamağa borcludurlar". "Kəşfiyyat məlumatları toplamaqdan savayı ermənilər həm də almanların tapşırığı ilə Rumıniyada 1940-cı ilin yayında faşistlərin Hollandiyada şəxsi adamlardan və şirkətlərdən qarət yolu ilə əldə etdikləri brilyant və digər qiymətli daş-qaşların qeyri-qanuni ticarəti ilə məşğul olublar". Burada əsasən Niderland-yəhudi zərgərlərdən nasistlərin topladığı zərgərlik məmulatlarının, bəzək əşyalarının qeyri-qanuni alveri nəzərdə tutulur.

Sənəddə erməni nasistlərinin ərazi iddialarının intəhasız olduğu belə göstərilir: "Daşnaklar almanlara öz istəklərini də çatdırıblar. Bu xahişin mahiyyəti ondan ibarət idi ki, SSRİ ilə müharibə baş verən halda Almaniyanın tərkibində daşnak partiyasının hakimiyyətdə olduğu erməni dövləti yaransın. Erməni millətçiləri Türkiyənin bəzi ərazilərinin, Azərbaycanda Dağlıq Qarabağın, Gürcüstanda Borçalı vilayətinin Ermənistana birləşdirilməsini təvəqqe edirdi".

Oleq Kuznetsov onu aydınlaşdırmışdı ki, daşnakların almanlarla əməkdaşlığa cəlb edilməsi həm də erməni emiqrantlarının mühakimə olunmuş lideri, "Njde" ləqəbli Ter-Arutunyan tərəfindən təsdiq edilir. Njde o zaman SSRİ Daxili İşlər Nazirliyinin Vladimir həbsxanasında cəzasını çəkirdi. Qaregin Njde etiraf edir ki, 1940-cı ildən onun yaratdığı "Tseqekron" təşkilatı və digər erməni millətçiləri şüurlu və məqsədyönlü şəkildə alman nasistləri ilə əməkdaşlıq etmişdir. "Tseqekron"u ermənilər özü dəfələrlə "nasistlər" kimi tərcümə ediblər. Maraqlıdır ki, erməni nasistləri faşistlərlə əməkdaşlıqda yalnız hərbi və iqtisadi kəşfiyyatla kifayətlənməmiş, həm də Holokost qurbanlarından qarət edilən zinətlərin qeyri-qanuni ticarəti ilə də məşğul olmuşlar. Njde özü təsdiq edir ki, o, şəxsən alman nasizminin tərəfdarıdır və onun yaratdığı tseqekron ideologiyası açıq nasist ideologiyasının surətidir, özü isə qatı hərbi cinayətkardır. Təəssüf ki, erməni xalqı da, Yerevana gələn minlərlə əcnəbi və siyasi xadimlər də ziyarət edib önündə baş əydikləri Njdenin kimliyinin fərqində deyillər.

Erməni terrorizmini və nasizmini illərlə araşdıran və ciddi təqiblərə məruz qalan politoloq Oleq Kuznetsov bu gün Rusiya XİN-in hesabatını öz əməyinin bəhrəsi kimi qiymətləndirir .

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# DİN-in Daxili Təhlükəsizlik İdarəsinin və Respublika Hospitalının Reabilitasiya Mərkəzinin yeni inzibati binaları istifadəyə verilib





Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü günündə - mayın 10-da Daxili İşlər Nazirliyinin (DİN) Daxili Təhlükəsizlik İdarəsinin və Respublika Hospitalının Reabilitasiya Mərkəzinin yeni inzibati binalarının açılışları olub.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxili işlər naziri, general-polkovnik Ramil Usubov hər iki tədbirdə iştirak edib.

Nazir görülən işləri yüksək qiymətləndirib, şəxsi heyətin normal fəaliyyəti üçün yaradılan şəraitdən məmnunluğunu bildirib, konkret tapşırıq və tövsiyələrini verib.

General-polkovnik Ramil Usubov xüsusilə vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən hüquqi-demokratik, sosial-iqtisadi islahatlar, ölkəmizin siyasi, hərbi və iqtisadi qüdrətinin daha da yüksəldilməsi istiqamətində aparılan geniş quruculuq işləri, fəal hüquq mühafizə siyasəti daxili işlər orqanlarının da fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, maddi-texniki təminatının, şəxsi heyətin məişət və xidməti iş şəraitinin daha da yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımların atılmasına əlverişli şərait yaradıb. Bu ali diqqət və qayğı nəticəsində hər il yeni obyektlərin istismara verildiyini xatırladan nazir elmi-texniki tərəqqinin ən son nailiyyətlərinin xidməti fəaliyyətdə tətbiqinə böyük önəm verildiyini nəzərə çatdırıb. R.Usubov bütün bunların şəxsi heyətin xidməti vəzifələrini layiqincə yerinə yetirməyə ruhlandırdığını qeyd edib.

Nazir əmin olduğunu bildirib ki, şəxsi heyət göstərilən yüksək diqqətə əməli işlə cavab verəcək, asayişin, əmin-amanlığın nümunəvi qorunması və cinayətkarlıqla qətiyyətli mübarizə sahəsində qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən yüksək səviyyədə və məsuliyyətlə gələcək.


## B İ L D İ R İ Ş

***Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin "Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən Cəmiyyətin 26-cı Beynəlxalq Xəzər Neft və Qaz sərgisində iştirakı üçün stend hazırlanması və tədbirin keçiriləcəyi məkanda quraşdırılmasına dair iş və xidmətlərin satın alınması məqsədilə kotirovka sorğusu keçirir.***

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 17 may 2019-cu il saat 18:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə təqdim edilməlidir. Əlaqələndirici şəxs - Əziz Nəzərov (telefon: 012-488-80-65). Zərflər 20 may 2019-cu il saat 12:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirçi Tower" ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə və ya www.scip.az saytından əldə edə bilərlər.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

İqtisadiyyat Nazirliyi "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC tərəfindən 07 may 2019-cu il tarixdə nəqliyyat vasitələrinin ehtiyat hissələri və təmir işlərinin satın alınması üzrə keçirilmiş kotirovka sorğusunda Tender komissiyasının qərarına əsasən "Kovsar Group" MMC qalib elan olunmuş və həmin MMC ilə satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***


## Beynəlxalq aləm

### "Sarı jiletlər" Fransa turizminə ziyan vurur

"Sarı jiletlər" hərəkatı iştirakçılarının kütləvi etirazları Fransada turizm sənayesinə mənfi təsir göstərmişdir. Bu barədə Fransa Milli Statistika və İqtisadi Tədqiqatlar İnstitutu (İNSEE) məlumat vermişdir.

Əcnəbi turistlər "sarı jiletlər"in etiraz aksiyaları ucbatından Fransaya, xüsusilə Parisə səfər etmirlər. Cari ilin ilk üç ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə turistlərin sayı 2,5 faiz azalmışdır. Həmin müddətdə ötən illə müqayisədə Fransa hotellərində rezervasiyaların sayı 1,3 faiz aşağı düşmüşdür. Parisin də daxil olduğu İl-de-Frans regionunda hotellərdə rezervasiyaların sayı daha çox - 4,6 faiz azalmışdır.



Fransanın iqtisadiyyat naziri Bruno Le Mer fevral ayında bildirirdi ki, "sarı jiletlər"in aksiyaları ölkə iqtisadiyyatına xeyli mənfi təsir göstərir. Onun dediyinə görə, ötən ilin dördüncü rübündə və cari ilin birinci rübündə ölkədə iqtisadi artım 0,2 faizədək azalmışdır.

Yanacağın qiymətinin artmasına etiraz edən "sarı jiletlər"in aksiyaları ötən il noyabrın 17-də başlamışdır. Kütləvi etirazlar nümayişçilərin polislə toqquşması, talanlar, maşınlara od vurulması, mağaza və banklara dəyən ziyanla müşayiət olunur.

### Tuncelidə altı terrorçu zərərsizləşdirildi



Türkiyənin Tunceli vilayətində PKK terrorçu təşkilatına qarşı əməliyyat zamanı altı terrorçu zərərsizləşdirilmişdir. Onların ikisi PKK-nın yüksəkvəzifəli üzvləridir. Bu barədə TRT telekanalı xəbər verir.

Məlumata görə, terrorçuların başçılarından biri "Doğan Sərhəd" ləqəbli Cəlal Qaya Türkiyə Daxili İşlər Nazirliyinin "göy axtarış siyahısı"nda yer almışdı. Onun yeri barədə məlumata görə 1,5 milyon lirə mükafat vəd edilmişdi. "Baran" ləqəbli (əsl adı Heydər Güldür) daha bir terrorçunun adı "narıncı axtarış siyahısı"nda idi.

### Tramp: "İran ABŞ-ı hədələyir"

Tehran ABŞ-a münasibətdə özünü təhlükəli aparır. Bu barədə Ağ evin başçısı Donald Tramp bildirmişdir. O, Ağ evdə jurnalistlərin suallarını cavablandırarkən demişdir: "Bizdə olan məlumata görə, İran çox böyük təhlükə mənbəyidir. Biz ölkəmizin və bir çox digər yerlərin təhlükəsizliyini təmin etməliyik".



ABŞ lideri əlavə etmişdir ki, o, iranlı həmkarı ilə görüşməyə hazırdır: "Biz ədalətli sövdələşmə imzalaya bilərik. Sadəcə olaraq istəmirik ki, onların nüvə silahı olsun. Biz onlarla danışmağa hazırıq".

Tramp ABŞ-la İran arasında hərbi qarşıdurma təhlükəsinin mövcudluğu barədə sualı cavablandırarkən qeyd etmişdir ki, "bu ehtimal həmişə mövcuddur".

Xatırladaq ki, ötən çərşənbə günü ABŞ Prezidenti İranda metallurgiya sənayesinə sanksiyalar tətbiq etmişdir. Məhdudlaşdırıcı tədbirlər dəmir, polad, alüminium və mis istehsalına şamil olunur.

Bundan əvvəl isə İran Prezidenti Həsən Ruhani bildirmişdi ki, Tehranın nüvə sazişi çərçivəsində maraqları nəzərə alınmasa, İran 60 gün ərzində uranı zənginləşdirməyi bərpa edəcək.

### Bağdadda terror aktında səkkiz nəfər həlak oldu



İraqın paytaxtı Bağdadda intiharçı özünü partlatmış, nəticədə azı 8 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır. Bu barədə "əs-Suməriyyə" telekanalı xəbər verir.

Məlumata görə, terrorçu özünü şiələrin yaşadığı Mədinə əs-Sədr rayonundakı bazarda partlatmışdır. Rayon tanınmış din xadimi Müqtəda Sədrin atası, ayətulla Məhəmməd Sadiq Sədrin şərəfinə adlandırılmışdır. Ayətulla 1990-cı illərdə Səddam Hüseynə qarşı çıxış etmiş və bir müddət sonra qətlə yetirilmişdir.

### Liviyada 40 xarici şirkətin fəaliyyəti dayandırıldı

Liviyada milli barışıq hökuməti (MBH) 40 xarici şirkətin fəaliyyətini dayandırmışdır. Bu barədə İqtisadiyyat və Ticarət Nazirliyi məlumat vermişdir.



Qeyd olunur ki, 40 xarici şirkətin fəaliyyəti lisenziyaların müddətinin bitməsi ilə əlaqədar dayandırılmışdır. Şirkətlər fəaliyyətlərini bərpa etmək üçün 90 gün ərzində lisenziyalarını yeniləməlidir.

Belə şirkətlərin arasında Liviyada bir sıra neft yataqlarında işləmək hüququ olan Fransanın "Total", "Thales" və Almaniyanın "Siemens" şirkətləri də var.

Yerli KİV xəbər verir ki, MBH-nın son qərarı Fransa hökumətinin Trablisə hücum edən "Liviya milli ordusu"nun başçısı, general Xəlifə Həftəri dəstəkləməsi ilə əlaqədardır.

Ötən ay Fransanın diplomat pasportu olan 13 vətəndaşı Liviya-Tunis sərhədində saxlanmışdı. Yerli KİV-in xəbərinə görə, saxlanılan fransızlar general Həftərin Qəryan şəhərində hərbi müşavirləridir.

Xatırladaq ki, "Liviya milli ordusu"nun bölmələri aprelin 4-də Trablisə hücuma keçmişdir.

# Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələri Ekologiya və Təbii Sərvətlər Nazirliyində olublar

Ümummilli lider Heydər Əliyev tərəfindən ölkə ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sularından, mineral xammal ehtiyatlarından və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası istiqamətində işlənib hazırlanmış dövlət siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Bu siyasətin davamı olaraq gənclərdə ekologiya sahəsində hüquq düşüncəsinin formalaşdırılması, onların ətraf mühitin mühafizəsi ilə bağlı fəallığının artırılması, ekoloji hüquq pozucusuna münasibətdə qanunun doğru və düzgün tətbiq edilməsi istiqamətində yeni biliklərə yiyələnməsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsində "Ekologiya hüququ" fənni tədris edilməkdədir.

Qeyd olunan sahədə nəzəri biliklərə yiyələnmənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərovun təşəbbüsü ilə Siyasi idarəetmə fakültəsinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan 2-ci kurs tələbələri 7 may 2019-cu il tarixində Ekologiya və Təbii Sərvətlər Nazirliyində olmuşlar. Nazirliyin strukturu ilə tanış olan tələbələr Ətraf mühitin və təbii sərvətlərin tənzimlənməsi şöbəsinin müdiri Mirsalam Qəmbərovun "Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tətbiqi məsələləri" mövzusunda mühazirəsini dinləmiş, nazirliyin ekoloji maarifləndirmə və ictimaiyyətlə əlaqələndirmə şöbəsinin müdiri Səyyarə Məmmədovanın ekoloji maarifləndirmədə hüquqi biliklərin rolu ilə bağlı tövsiyələrinə qulaq asmışlar. Diskussiya şəraitində keçən praktiki dərsdə tələbələri maraqlandıran suallara cavab verilmiş, nazirliyin nümayəndələri tələbələrlə münasibətlərindən məmnun olduqlarını bildirmiş, bu təcrübədən gələcəkdə də istifadə edilməsinin məqsədəuyğun olduğu qeyd edilmişdir.

Sonda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, hüquq üzrə elmlər doktoru İsaxan Vəliyev səmərəli keçən görüşün təşkili və maraqlı təcrübi dərsə görə nazirliyin rəhbərliyinə və görüş iştirakçılarına təşəkkürünü bildirmişdir.

***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 28 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Azərbaycan Turizm və Menecment Universiteti tədbirin keçirilməsinin satın alınması üçün

## *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**LOT-1.** 2018-2019-cu tədris ilinin məzun mərasiminin keçirilməsi

Tender iştirakçılarına təklif edilir ki, bu layihə üzrə öz təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə, yazılı surətdə (Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23) təqdim etsinlər.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
10. Digər sənədlər.

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olunmaqla) tender proseduru başlanmasından 7 (yeddi) bank günü əvvəl təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə tərtib olunmalıdır (başqa dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilində tərcümə edilmiş surətləri əlavə edilməlidir).

İştirak haqqı LOT üzrə aşağıdakı məbləğdə təşkil edir:
LOT -1. 200 manat.

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçılar iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidir:

**VÖEN: 1500817681**
**Hesab: AZ27İBAZ40090019445931153206**
**Bankın adı: ABB ASC Nərimanov filialı**
**VÖEN: 9900001881**
**Kod: 805540**
**Müxbir hesab: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T.: İBAZAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 12 iyun 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 20 iyun 2019-cu il saat 17:00-a qədər Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23 ünvanında yerləşən Azərbaycan Turizm və Menecment Universitetinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Tenderdə iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender təklifi zərfləri 21 iyun 2019-cu il saat 10:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar.

**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23, AZ1072
**Tel: (+994) 55 203 25 33**

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti

## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

● **LOT 1 - yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134 (telefon: (012) 568-46-25) ünvanından ala bilərlər.

**İştirak haqqı: 1000 manat**
**VÖEN: 1003853391**
**H/h: AZ41CTRE00000000000002947601**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
- digər sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **20 iyun 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **01 iyul 2019-cu il saat 18:00-a** qədər **AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr, Mirmahmud Kazımovski küçəsi, 134** ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **02 iyul 2019-cu il saat 16:00-da Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134** ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 29 mart və 12 aprel 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına siyirtmələrin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 04 iyun 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 05 iyun 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarə olunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Ağaəli Mirzəyev (agali.mirzeyev@azersu.az (+99412) 431-47-67 (2249).

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 29 mart 2019-cu il və 12 aprel 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına sayğac qutularının satın alınması məqsədilə dərc edilmiş tenderlərdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 03 iyun 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 06 iyun 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: (+99412) 431-47-67 (2288), mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

*Tender komissiyası*

*"Bank Respublika" ASC-nin balansında olan Bakı şəhəri, Xətai rayonu, Sahib Hümbətov küçəsi, 90 nömrəli binada yerləşən 5 nömrəli mənzilə dair mülkiyyət hüququnu təsdiq edən Çıxarış, Bakı şəhəri, Xətai rayonu, H.Aslanov qəsəbəsi, Rövşən Hüseynov (1-ci Dairəvi) küçəsində yerləşən 11 A nömrəli fərdi yaşayış evinə dair mülkiyyət hüququnu təsdiq edən Çıxarış və Bakı şəhəri, Xətai rayonu, Nobel prospekti, 23 nömrəli binanın 1-ci mərtəbəsində yerləşən qeyri-yaşayış sahəsinə (225 saylı mağaza) dair mülkiyyət hüququnu təsdiq edən Çıxarış itdiyi üçün etibarsız sayılır.*

Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

## "BANK OF BAKU" ASC-nin səhmdarlarının nəzərinə

**25 iyun 2019-cu il tarixdə saat 15:00-da** "Bank of Baku" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının ümumi yığıncağının növbəti iclası keçiriləcək.

**Ünvan:** Bankın Baş İdarəsi, Bakı, AZ1069, Atatürk prospekti, 42. **Telefon:** 447-00-55. İclasın gündəliyi bildirişlə birgə səhmdarlara göndərilib.

Gündəlik üzrə materialları göstərilən ünvandan əldə etmək olar.

## К сведению акционеров ОАО "БАНК ОФ БАКУ"

**25 июня 2019-го года в 15:00** состоится очередное заседание общего собрания акционеров Открытого Акционерного Общества "Банк оф Баку".

**Адрес:** Головной Офис Банка, Баку, A31069, проспект Ататюрка, 42. **Телефон:** 447-00-55.

Повестка заседания и уведомление высланы акционерам. Материалы по повестке можно получить по указанному адресу.

Azercell

## abunəçilərinin nəzərinə

11.06.2019-cu il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində mövcud olan "Hər Yerə", "Socar", "Dövlətcell", "Hədsiz" , "Hədsiz Zəng", "Hədsiz İnternet", "Biznes 200", "Standart", "Bizimkilər" tarif paketlərində zənglərə 60 saniyəlik hesablama intervalı tətbiq olunacaqdır.

***Qeyd:***

**Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin sifariş, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.**

## "Azərsu" ASC qaynaq aqreqatları və generatorlar üçün süzgəclərin, araqatı, paranit və kipkəclərin satın alınması məqsədilə

## *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**

**LOT-1:** Qaynaq aqreqatları və generatorlar üçün süzgəclərin satın alınması

**LOT-2:** Araqatı, paranit və kipkəclərin satın alınması

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431-47-67/2288) ala bilərlər.

**Hər bir LOT üzrə iştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **21 iyun 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **03 iyul 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **04 iyul 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Məşğulluq Xidmətinin rəis müavini Cəmaləddin Quliyevə qardaşı

**ƏLİQƏMƏ QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi "34 №-li Yol İstismarı" MMC-nin direktoru Əliqulu Babaşova əmisi

**VAQİF MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qazax Xeyriyyə İctimai Birliyinin İdarə Heyətindən İlham Pirməmmədov, Teymur Bünyadov, Nəriman Həsənzadə, Nizami Cəfərov, Məmməd Musayev, Mustafa Babanlı, Şahin Mustafayev, Əhməd Vəliyev, Fuad Hacıyev və ictimai birliyin digər üzvləri Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova əmisi

**VAQİF BABAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universitetinin rektorluğu və kollektivi Azərbaycan Respublikasının xalq artisti, görkəmli bəstəkar, professor

**ARİF MƏLİKOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları Əjdər Cavadova əzizi

**ŞAİQ CAVADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin rektoru, professor Rahim Hüseynov və universitetin kollektivi Azərbaycan Respublikasının xalq artisti, görkəmli bəstəkar, professor

**ARİF MƏLİKOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9053
Sifariş 1538
Qiyməti 40 qəpik